4 oktyabr 2024 №74 (2139)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Prezident Zəngilanda quruculuq işləri ilə tanış olub

Prezident İlham Əliyev oktyabrın 3-də Zəngilan şəhərində 104 mənzilli yaşayış kompleksinin tikintisi ilə tanış olub. Dövlətimizin başçısına yaşayış kompleksi barədə məlumat verilib.

Kompleksin təməli 2022-ci il oktyabrın 19-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Prezident İlham Əliyev Zəngilan şəhərində beşinci və altıncı yaşayış kompleksinin təməlini qoyub.



Beşinci yaşayış məhəlləsi 5 hektar ərazini əhatə edir. Burada binalar 3, 4, 5 və 6 mərtəbədən ibarət olacaq. Ümumilikdə 334 mənzilin inşası nəzərdə tutulub.

Yaşayış kompleksi şəhərin mərkəzi hissəsində, orta sıxlıqlı və çoxfunksiyalı zonada, məktəb, uşaq bağçası, Zəngilan Konqres Mərkəzi və şəhər parkının yaxınlığında yerləşir.

3 hektar ərazini əhatə edən altıncı yaşayış kompleksində ümumilikdə 177 mənzildən ibarət 3, 4, 5 və 6 mərtəbəli çoxmənzilli binaların inşası nəzərdə tutulur. Kompleks orta sıxlıqlı ərazidə, məktəb, uşaq bağçası, inzibati və ticarət zonalarının yaxınlığında yerləşəcək.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin Zəngilan Elektrik Şəbəkəsi Rəqəmsal İdarəetmə Mərkəzinin açılışında və "AzərEnerji" ASC-nin "Sarıqışlaq" Su Elektrik Stansiyasının açılışında iştirak edib.

Zəngilanın bərpası konsepsiyasında şəhərin turizm potensialı da nəzərə alınaraq müvafiq infrastruktur yaradılır. Dövlətimizin başçısı Zəngilan İstirahət Kompleksində aparılan tikinti işləri ilə tanış olub.

Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına kompleksdə yaradılacaq şərait barədə məlumat verib.

Qeyd olunub ki, kompleksdə 111 nömrəlik hotel, həmçinin 10 kottec qonaqların istifadəsinə veriləcək. Kompleksin ərazisində üzüm və digər meyvə bağları salınacaq.

Kompleksdəki hotel binasının təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

## Zəfər tarixinin dörd yaşı: Cəbrayılın yeni büsatı

### Prezident və birinci xanım işğaldan qurtuluşunun ildönümündə Cəbrayıla səfər ediblər





Oktyabrın 4-ü Azərbaycanın Zəfər salnaməsinə əbədi yazılan günlərdən biri – Cəbrayıl şəhərinin işğaldan azad olunmasının dördüncü ildönümüdür. Ötən dörd ildə, yeni büsatına qovuşan digər yurd yerlərimiz kimi, Cəbrayılda da böyük quruculuq işlərinə başlanılıb. Cəbrayıl şəhəri də daxil olmaqla rayonun 10-a yaxın yaşayış məntəqəsi bərpa olunur. Eyni zamanda, geniş infrastruktur layihələri icra edilir.

Artıq bir həftədir Cəbrayıl şəhəri sakinlərinə qucaq açıb. Təməli qoyulan kəndlərdə də inşaat işləri davam edir.

Cəbrayılın 27 illik işğaldan sonra azadlığa qovuşmasının 4-cü ildönümü ərəfəsində, oktyabrın 3-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayona səfər ediblər.

***

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Cəbrayıl rayonunun Horovlu kəndində fərdi evlərin və sosial obyektlərin tikintisi ilə tanış olublar.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev kənddə görülən işlər barədə məlumat verib.

Bildirilib ki, layihələndirilən ümumi ərazi 248 hektardır və perspektivdə kənddə 3470 nəfərin (867 ailə) yaşaması nəzərdə tutulub.

Birinci mərhələdə Horovluya 1395 nəfərin köçürülməsi üçün tikilən 334 fərdi evin hörgü işləri tamamlanıb, hazırda xarici və daxili bəzək işləri görülür. İnşa olunan evlər iki, üç, dörd və beş otaqdan ibarətdir. Məktəb binası, uşaq bağçası və digər iaşə obyektlərinin tikintisi də davam etdirilir.

Diqqətə çatdırılıb ki, kəndin dayanıqlı su təchizatını təmin etmək məqsədilə burada əvvəllər mövcud olmuş kəhrizlərin bərpası üçün layihə həyata keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hazır evlərə baxıblar.

Qeyd edək ki, Horovlu kəndinin təməli 2023-cü il mayın 4-də Prezident İlham Əliyev tərəfindən qoyulub.

***

Prezident və birinci xanım oktyabrın 3-də Cəbrayıl şəhərində Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binasının açılışında iştirak ediblər.

Elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılan şərait barədə məlumat verib.

Diqqətə çatdırılıb ki, məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb.

*davamı səh. 2-də*

## Kitaba bağlı olanlar bir arada

### Bakı Ekspo Mərkəzində böyük kitab bayramı

Oktyabrın 2-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində X Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimi keçirilib. 10-cu yubiley sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyinə həsr edilib.

Sərgi tarixində ilk dəfə yeddi gün sürəcək kitab bayramında uşaqlar və böyüklər üçün ustad dərsləri, kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları formatında ümumilikdə 327 tədbir keçiriləcək.

Sərgidə 18 xarici ölkədən 56 qurum, həmçinin 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edir.

*səh. 3*



## Bakıda sinema mehi: beynəlxalq festivalın açılışı




Son illər ölkəmizin dünya kino bazarına çıxışını sürətləndirmək, istehsal sahələrində davamlı inteqrasiyanı təmin etmək məqsədilə bir sıra beynəlxalq layihələr həyata keçirilir. Oktyabrın 2-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Kino Agentliyinin (ARKA) dəstəyi ilə Heydər Əliyev Mərkəzində açılışı keçirilən "Baku Cinema Breeze" (BCB) Beynəlxalq Film Festivalı da bu qəbildən diqqətəlayiq layihədir.

Audiovizual sənayenin inkişafına istiqamətlənən festival Mədəniyyət Nazirliyinin "Yaradıcı Azərbaycan" layihəsi çərçivəsində həyata keçirilir.

Açılış mərasimində çıxış edən mədəniyyət nazirinin müavini Murad Hüseynov festivalın məqsədinin Azərbaycanı regionda kino sənayesinin mərkəzi kimi tanıtmaq, kino mədəniyyətini inkişaf etdirmək olduğunu diqqətə çatdırdı. Bildirdi ki, festival Azərbaycanı qlobal kino xəritəsində daha yaxşı tanıdacaq.

Qeyd olundu ki, "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" çərçivəsində mədəniyyət və yaradıcı sənayelər, xüsusilə də kino sahəsində mühüm işlər görülür. Mədəniyyət Nazirliyi mütəmadi olaraq animasiya, tammetrajlı və qısametrajlı filmlərlə bağlı festival və müsabiqələrin keçirilməsinə dəstək göstərir.

*davamı səh. 2-də*

## Türk Dövlətləri Təşkilatı 15 yaşında

Oktyabrın 3-də Türk Dövlətləri Təşkilatının (2021-ci ilədək Türk Şurası) əsasının qoyulmasının 15-ci ildönümü tamam oldu.




Azərbaycan Xarici İşlər Nazirliyi bununla bağlı üzv ölkələri təbrik edib: "Tarixi Naxçıvan Sazişi ilə əsası qoyulmuş, bir-birinə sıx tellərlə bağlı olan türk dövlətləri və xalqları arasında qardaşlıq, dostluq, həmrəylik əsasında birgə əməkdaşlığa əsaslanan Türk Dövlətləri Təşkilatının yaradılmasından 15 il ötür. Bu münasibətlə ailəmiz hesab etdiyimiz Türk dünyasını birləşdirən təşkilatın bütün üzv və müşahidəçilərini ürəkdən təbrik edir, ötən 15 il ərzində daha fəal, sistematik xarakter alan TDT-nin bundan sonra da gücləndirilməsi istiqamətində birgə fəaliyyətimizdə uğurlar arzu edirik!".

Türkiyə Xarici İşlər Nazirliyi də təbrik mesajı yayıb.

"Türk Dövlətləri Təşkilatının təsis sənədi, Naxçıvan Sazişinin 15-ci ildönümü münasibətilə bütün Türk dünyasının 3 Oktyabr – Türk Dövlətlərinin Əməkdaşlıq Gününü qürurla qeyd edirik! Türk dövlətləri arasında "Dildə, fikirdə, işdə birlik!" şüarına nail olmaq üçün əzmlə çalışmağa davam edəcəyik", – deyə mesajda vurğulanır.

*davamı səh. 2-də*

## Vətən müharibəsinin ilk qazi şəhəri

### Cəbrayıl "Şəhər günü"nü sakinləri ilə qeyd edir

Dörd il əvvəl bu günlər yeni tariximizin şan-şərəf səhifələri yazılır, Azərbaycan Silahlı Qüvvələrinin işğal altındakı torpaqlarımızı azad etmək üçün sentyabrın 27-də başlanan Zəfər yürüşü davam edirdi.




Vətən müharibəsinin ilk günü Ermənistan işğalçı qüvvələrinin otuz ilə yaxın qurub-möhkəmləndirdiyi istehkam xətlərini yararaq Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı və Nüzgar kəndlərini azad edən ordu hissələrimiz düşmənə bütün cəbhəboyu sarsıdıcı zərbələr endirirdi.

Oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan və Talış yaşayış məntəqələri, Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndləri işğaldan azad edildi.

Oktyabrın 4-də isə müzəffər Ordumuzun daha böyük Qələbə sorağı gəldi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev televiziya ilə xalqa müraciətində Cəbrayıl şəhərinin və Cəbrayıl rayonunun doqquz kəndinin (Karxulu, Yuxarı Maralyan, Cəfərabad, Mahmudlu, Şükürbəyli, Dəjəl, Çərəkən, Daşkəsən, Horovlu) işğaldan azad edildiyini bildirdi.

27 il davam edən işğaldan sonra düşmən tapdağından azad edilən ilk şəhərimiz Cəbrayıl oldu. Bu, Azərbaycan Ordusunun torpaqlarımızın bütövlüyü uğrunda apardığı müqəddəs savaşın ilk qazi şəhəri idi.

*davamı səh. 4-də*

70 yaşa 70 əsərlə — rəssamın yubiley sərgisi

*səh. 5*





Romada "Şuşa naxışları" — süni zəkanın təqdimatında

*səh. 8*

№74 (2139)
4 oktyabr 2024
www.medeniyyet.az

# Zəfər tarixinin dörd yaşı: Cəbrayılın yeni büsatı

## Prezident və birinci xanım işğaldan qurtuluşunun ildönümündə Cəbrayıla səfər ediblər



*əvvəli səh. 1-də*

İnternet təchizatı, mebel-inventar və digər zəruri avadanlıqlar müasir tələblər səviyyəsindədir. Təhsil ocağının həyətində oyun meydançaları yaradılıb.

Xatırladaq ki, təhsil ocağının təməli 2021-ci il oktyabrın 4-də qoyulub.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Cəbrayıl şəhərində "Azərsun Holding" MMC-nin alkoqolsuz içki məhsulları istehsalı kompleksinin təməlini qoyub.

"Azərsun Holding" şirkətinin müşahidə şurasının sədri Abdolbari Gözəl dövlətimizin başçısına istehsal kompleksi haqqında məlumat verib.

Bildirilib ki, qazlı və qazsız su, soyuq çay, soyuq qəhvə, limonadlar, təbii meyvə şirəli içkilərin istehsal ediləcəyi müəssisənin illik istehsal gücü 250 milyon PET şüşə, 350 milyon alüminium tənəkə qutu təşkil edəcək. Kompleksin istismara verilməsi üçün ilkin mərhələdə 35 milyon manat həcmində investisiyanın qoyuluşu nəzərdə tutulur. Tam istehsal gücü ilə fəaliyyətə başladıqdan sonra kompleksdə 300-ə yaxın sakin işlə təmin ediləcək.

***

Prezident İlham Əliyev Cəbrayıl rayonunda "Hicaz quşçuluq" müəssisəsinin damazlıq yumurta istehsalı fabrikinin təməlini qoyub.

"Hicaz" MMC-nin təsisçisi Səfər Sadıqov dövlətimizin başçısına müəssisə haqqında məlumat verib.

Bildirilib ki, müəssisə 3 sahədən – damazlıq yumurta, inkubator və yem fabriklərindən ibarət olacaq. Birinci mərhələdə 30 hektar ərazidə 24 damazlıq yumurta istehsalı sahəsi tikiləcək. Burada illik 24 milyon ədəd damazlıq yumurta istehsal ediləcək.

Bununla yanaşı, saatda 40 ton istehsal gücünə malik yem fabriki və inzibati bina inşa olunacaq. Həmçinin ərazidə yerləşən soyuducu anbar və illik 24 milyon ədəd yumurta tutumuna malik inkubasiya fabriki fəaliyyət göstərəcək. Layihə üzrə 150 daimi iş yerinin yaradılması nəzərdə tutulub.

***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlqoyma mərasimlərində iştirak ediblər.

İqtisadiyyat naziri Mikayıl Cabbarov sənaye parkında görülən işlər barədə məlumat verib.

Dövlətimizin başçısının 2021-ci il 4 oktyabr tarixli fərmanına əsasən, İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb. Ərazisi 200 hektar olan parkda logistika və ticarət mərkəzi, anbar kompleksləri, topdan və pərakəndə satış obyektləri, TIR parkı, gömrük, yanacaqdoldurma, avtomobil və digər texnikaların təmiri məntəqələrinin yaradılması planlaşdırılır. Sənaye parkı yeni salınan magistral avtomobil və dəmir yollarının üzərində yerləşir. Hazırda burada bir müəssisə – kənd təsərrüfatı texnikalarına, yük maşınlarına texniki servis xidməti göstərilir.



Sənaye parkında əvvəlcə Litvanın "Dominari" şirkətinin mebel klasterinin təməlqoyma mərasimi olub. İnvestisiya dəyəri 50 milyon manatdan çox olan müəssisədə ilkin mərhələdə 650 nəfər işlə təmin ediləcək. İşçilər Cəbrayıl və ətraf rayonlardan cəlb olunacaq.

Parkda təməli qoyulan "Karabakh Stone" MMC-nin zavodu yol və müxtəlif sahələrin abadlaşdırılması üçün dekorativ daşlar (tamet daşlar) və səki bordürlərinin istehsalı ilə məşğul olacaq. İnvestisiya həcmi 7,8 milyon manat olan layihə çərçivəsində 95 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. Məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldiləcək. Türkiyə texnologiyasından istifadə ediləcək müəssisənin 2025-ci ildə fəaliyyətə başlaması planlaşdırılır.

"Prestij-Kimya" MMC-nin zavodu isə dezinfeksiyaedici, maye yuyucu və ağardıcı məhlulların istehsalını həyata keçirəcək. İnvestisiya dəyəri 5,8 milyon manat olan müəssisədə 214 nəfər daimi işlə təmin ediləcək.

# Bakıda sinema mehi: beynəlxalq festivalın açılışı

*əvvəli səh. 1-də*

TÜRKSOY-un baş katibinin müşaviri Kayrat Mukanov Azərbaycanın kino sənayesində mühüm irəliləyişlərin olduğunu dedi. Bildirdi ki, bu kimi tədbirlər ortaq layihələrin dəstəklənməsi ilə yanaşı, kino sənayesi bazarını müəyyən edən istehsalçıların mübadiləsinə, birgə layihələrin dəstəklənməsinə zəmin yaradacaq.

Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov festivalın kino sənayesindəki proseslərin sürətləndirilməsinə töhfə verəcəyini, aidiyyəti şirkətləri müştərək layihələrə sövq edəcəyini vurğuladı. Festival haqqında məlumat verən şöbə müdiri layihə çərçivəsində Şərqi və Mərkəzi Asiya ölkələrinin kino sənayesi



nümayəndələrinin bir araya gəldiyini, tədbir çərçivəsində bu sahədə əməkdaşlıqların müzakirə ediləcəyini bildirdi. Qeyd edildi ki, tədbirdə ABŞ, Kanada, Hindistan, Türkiyə və digər ölkələrdən kino mütəxəssislərinin iştirakı festivalın əhəmiyyətini daha da artırır.

Açılış mərasimində "Baku Cinema Breeze" festivalının əhatə etdiyi film festivallarının direktorları – İmam Həsənov ("DokuBaku"), Rəşid Ağamalıyev (ANİMAFİLM), Oktay İyusibov (Türk Dünyası Beynəlxalq Animasiya Festivalı - ATA) və Fehruz Şamıyev (Bakı Beynəlxalq Film Festivalı – BİFF) çıxış edərək tədbirin əhəmiyyəti barədə fikirlərini bölüşüblər, ideyanın dünya kinosuna inteqrasiya üçün yeni meydan olduğunu dedilər. Həmçinin tədbirdə bu xüsusi günün əbədiləşdirilməsi üçün üzərində "Baku Cinema Breeze" yazılan boşqaba imzalar çəkilib.

Tədbir çərçivəsində ARKA-nın təsis etdiyi "Yaşıl dünya naminə" kino mükafatı da təqdim olundu. Mükafatı mədəniyyət nazirinin müavini Səadət Yusifova "On melting snow" ("Əriyən qar üzərində") filmi ilə qlobal iqlim gündəminə verdiyi töhfəyə görə kinematoqraf Mojitaba Baharuriyə təqdim etdi.

Gecədə "Animasiya film sənayesinin inkişafına verdiyi töhfəyə görə" təltif olunan Məsud Pənahi (Azərbaycan), Mavzur Mahmudov (Özbəkistan), Salimgali Mirzaşev (Qazaxıstan), Kanybek Omurbekov (Qırğızıstan), Mojek Charyyev (Türkmənistan), Berat İlk (Türkiyə) və Elçin Axundov (Azərbaycan) təşkilatçılara, onların əməyini unutmayan hər kəsə təşəkkürlərini bildirdilər.

Mükafatçılar sırasında Rusiyanın görkəmli sənədli filmlər rejissoru və ssenaristi Yevgeni Simbal da var. O, sənədli film sahəsinin inkişafına verdiyi töhfəyə görə mükafata layiq görüldü.




Qeyd edək ki, oktyabrın 8-dək davam edəcək festival müddətində Nizami Kino Mərkəzi, "CineMastercard Azərbaycan" kinoteatrı, "YARAT" Müasir İncəsənət Məkanı, "Kapellhouse Baku", "Landmark" və "YAY Gallery" məkanlarında film nümayişləri olacaq.

**Həmidə**

# Rusiya Dövlət Dumasının komitə sədri: "Qarabağ Azərbaycandır!"

## "Gözlərimlə gördüm ki, bölgə yenidən çiçəklənəcək"

Azərbaycanın mədəniyyət mərkəzi Şuşada olmaq mənim çoxdankı arzumun həyata keçməsi baxımından əlamətdar oldu. Deyə bilərəm ki, Qarabağ bölgəsi inanılmaz templərlə bərpa olunur. Artıq Füzulidə və Zəngilanda çox gözəl beynəlxalq aeroportlar var, üçüncü hava limanı sürətlə tikilir. Şuşa möhtəşəm tikinti meydançasını xatırladır, tarixi obyektlər bərpa olunur. Mən Şuşada olduğum üçün xoşbəxtəm. Bütün bunlar mənim üçün çox əlamətdar oldu.

Rusiya Federasiyası Dövlət Duması Beynəlxalq məsələlər üzrə komitəsinin sədri, Dumada Rusiya Liberal Demokrat Partiyası fraksiyasının rəhbəri Leonid Slutski bu sözləri sentyabrın 30-da Azərbaycan Prezidenti İlham Əliyevin qəbulunda olarkən deyib.

O qeyd edib ki, Qarabağın Azərbaycanın tərkibinə qayıtması Azərbaycan üçün milli məsələ olmaqla yanaşı, Cənubi Qafqazda sabitlik, uğurla həll edilən tarixi vəzifədir.

"Bu gün Azərbaycanın Qarabağ bölgəsində sürətli templərlə yeni iş yerlərinin yaradılması, o cümlədən elmi əsaslı klasterlərin həyata keçirilməsi prosesi gedir. Bəzilərinin Qarabağın tezliklə azad ediləcəyinə inanmadığı kimi, bu gün də kimsə bir neçə ildən sonra Qarabağda nələrin yaradılacağını təsəvvür etmir. Amma mən öz gözlərimlə gördüm ki, bu bölgə yenidən çiçəklənəcək, bərəkətli torpaqlara çevriləcək", – deyə o əlavə edib.

Şuşadan Milli Məclisə deputat seçilmiş Polad Bülbüloğlu ilə birlikdə Şuşaya getdiyini deyən L.Slutski Bülbülün şəhərdəki ev-muzeyini də ziyarət etdiyini bildirib.

Rusiya Dövlət Dumasının komitə sədri sonda deyib: "Möhtərəm əziz İlham Heydər oğlu, dünən Şuşada olandan sonra bir daha Sizin qonağınız olaraq qəlbi Azərbaycanla döyünən, o cümlədən Azərbaycanın hüdudlarından kənarda olanları Qarabağın qaytarılması münasibətilə təbrik etmək istəyirəm. Qarabağ Azərbaycandır!".

# Türk Dövlətləri Təşkilatı 15 yaşında

*əvvəli səh. 1-də*

Qeyd edək ki, 1992-ci ildə (29-31 oktyabr) Ankarada türkdilli ölkələrin (Türkiyə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğızıstan) prezidentlərinin ilk toplantısı ilə əsası qoyulan zirvə görüşləri formatı 2009-cu ildən sonra Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına (Türk Şurası) çevrilib. 2009-cu il oktyabrın 3-də Naxçıvan sammitində Türk Şurasının yaradılması barədə qərar qəbul edilib. Türk Şurası 2010-cu il 15-16 sentyabrda İstanbulda keçirilən sammitdə rəsmən təsis olunub.

2021-ci il noyabrın 12-də Türk Şurasının İstanbul zirvəsində qurumun adı dəyişdirilərək Türk Dövlətləri Təşkilatı (TDT) adlandırılıb.

2018-ci ildə Macarıstan, 2021-ci ildə Türkmənistan TDT-yə müşahidəçi statusu ilə üzv olub. 2022-ci il noyabrın 11-də TDT-nin Səmərqənd sammitində Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) təşkilata müşahidəçi üzv qəbul edilib.

Beləliklə, hazırda Türk Dövlətləri Təşkilatının beş qurucu üzvü (Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan) və üç müşahidəçi üzvü (Türkmənistan, Macarıstan, Şimali Kipr) var.

# "Omarket" filmlərimizi tanıtmaq üçün platforma olacaq

Oktyabrın 3-də Mədəniyyət Nazirliyi və Kino Agentliyinin (ARKA) dəstəyi ilə ölkəmizdə ilk dəfə keçirilən "Baku Cinema Breeze" Beynəlxalq Film Festivalı çərçivəsində Şərq ölkələri filmlərinin dünyaya tanıdılması üçün platforma rolunu oynayacaq "Omarket"in açılışı keçirilib.



Heydər Əliyev Mərkəzində gerçəkləşən mərasimdə əvvəlcə qonaqlar yaradıcı sənaye nümayəndələrinin fəaliyyətinin tanıdılması məqsədilə təşkil edilən sərgi ilə tanış olublar. Sərgi kino, animasiya, musiqi, mədəniyyət sahəsində startaplar, oyun texnologiyaları, dəb, dizayn kimi yaradıcı klasterləri, eləcə də yaradıcı məkanları bir araya gətirib.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova tədbirdə çıxış edərək bildirib ki, ilk dəfə keçirilən "Baku Cinema Breeze" ölkəmizdəki bütün kino festivallarını özündə birləşdirir, bir çətir altında toplayır. Layihə çərçivəsində "Omarket" sərgisinin təşkil edilməsi kino sənayemizin inkişafı üçün böyük potensialın olduğunu və dövlətin bu prosesə dəstək verdiyini göstərir.

Onun sözlərinə görə, "Baku Cinema Breeze" platforması 15-dən çox ölkənin nümayəndələrini, 100-dən çox qonağı, 300-ə yaxın filmin nümayiş ediləcəyi tədbirləri özündə birləşdirir: "Platforma çərçivəsində keçirilən festivallar təkcə kino sənətinin inkişafına təkan vermir, həm də gənc və istedadlı rejissorlarımıza özlərini ifadə etmək, dünyaya çıxış əldə etmək imkanı yaradır. Festivallarda nümayiş olunacaq filmlərin hər biri böyük zəhmət, yaradıcılıq və sevgi ilə ərsəyə gəlib".

Qeyd olunub ki, gənc istedadları dəstəkləmək, onların potensialını artırmaq və milli kinematoqrafiyamızın beynəlxalq səviyyədə tanınmasını təmin etmək məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən bir çox layihələr həyata keçirilir. Bunların sırasında ARKA tərəfindən 2023-cü ildə elan edilən film layihələri müsabiqəsini, bu il elan edilən postprodakşn mərhələsində olan film layihələrinin tamamlanmasına dəstək müsabiqəsi və qeyri-hökumət təşkilatları üçün mədəni və yaradıcı sənayelərin (MYS) təşviqi üzrə qrant müsabiqəsini qeyd etmək olar. Mədəniyyət Nazirliyi həmçinin mütəmadi olaraq animasiya, tammetrajlı və qısametrajlı filmlər, sənədli filmlərə dair film festivallarına dəstək göstərir.

Bildirilib ki, MYS üzrə İşçi qrupun fəaliyyəti çərçivəsində hazırda müvafiq dövlət təşəbbüsləri müzakirə olunur. Bu istiqamətdə Mədəniyyət Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əqli Mülkiyyət Agentliyi və digər aidiyyəti qurumlar arasında sıx əməkdaşlığın təmin edilməsi vacibdir.

Nazir müavini diqqətə çatdırıb ki, son iki ildə minlərlə insanın qatıldığı "Yaradıcı müzakirələr" layihəsi çərçivəsində paytaxt və regionlarda digər klasterlərlə yanaşı, film klasteri üzrə də məlumatların artırılmasına yönəlmiş təlimlər, ustad dərsləri, yaradıcı söhbətlər təşkil edilib: "Bu gün Azərbaycan kinosu yalnız öz daxili auditoriyası üçün deyil, həm də beynəlxalq kino bazarı üçün əhəmiyyətli oyunçuya çevrilir. Sahənin inkişafının, rəqabət qabiliyyətliliyinin və gəlirliliyin artırılması üçün əlavə vergi güzəştləri, investisiyaların cəlb olunması kimi təşviq mexanizmlərinə ehtiyac duyulur. Bunun bir göstəricisi kimi "Omarket" sərgisinin əhəmiyyətini xüsusi vurğulamaq istərdik. Bu bazar Şərq ölkələri filmlərinin dünyaya tanıdılması üçün vacib bir platformadır. Azərbaycan olaraq biz bu bazarda öz milli filmlərimizi təqdim etməklə regionumuzun film sektorunu inkişaf etdirmək və onu qlobal kino sənayesinə inteqrasiya etmək niyyətindəyik. Bu bazar eyni zamanda regionun istedadlı rejissor və prodüserlərinin qlobal bazara çıxışını təmin edəcək və beynəlxalq əməkdaşlıqların qurulmasına şərait yaradacaq".

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov Azərbaycanda kino sənayesinə göstərilən diqqət və qayğıdan söz açıb. Bildirib ki, film sənayesinin səmərəli şəkildə idarə edilməsi maliyyə, yaradıcı proseslər və insan resurslarının optimal şəkildə təşkil olunmasına bağlıdır. Azərbaycan və bir çox Avropa ölkələrində dövlət qurumları milli filmlərin maliyyələşdirilməsində mühüm rol oynayır. Bu qrantlar yerli kino sənayesinin inkişafını dəstəkləyir və bədii filmlərin çəkilişini maliyyələşdirir. İnvestorların məlumatlandırılması, sahibkarların maarifləndirilməsi və digər dəstək tədbirlərinin həyata keçirilməsi də çox önəmli məsələlərdəndir.

Digər çıxış edənlər də festivalın əhəmiyyətini yüksək qiymətləndiriblər.

Açılış mərasimindən sonra tədbir panel iclası ilə davam edib.

***

"Omarket"in birinci panel iclası "Omarket" – sənaye lokomotivi. Festivallar, yayım platforması, birgə istehsal" mövzusuna həsr olunub.

Amerika Televiziya Sənətləri və Elmləri Akademiyasının üzvü Kamran Qasımovun moderatorluğu ilə gerçəkləşən paneldə Qırğızıstan Mədəniyyət Nazirliyi Kino sənayesi şöbəsinin əməkdaşı Maratbek Asanaliyev, Türkiyənin "Kunay film" şirkətinin rəhbəri Leyla Atakişiyeva, Gürcüstanın Kino Mərkəzinin əməkdaşı Georgi Skhvediani, Azərbaycandan prodüser Zaur Darabzadə və Rusiyadan rəqəmsal media eksperti Nina Lariçeva öz fikirlərini bölüşüblər.

***

"Omarket" – film komissiyaları üçün yeni istiqamət" adlı ikinci panel Azərbaycan Prodüserlər Gildiyasının sədri Fikrin Bektaşinin moderatorluğu ilə gerçəkləşib.




Paneldə TÜRKSOY-un Beynəlxalq kino əməkdaşlığı şöbəsinin əməkdaşı Maira Karsakbaeva (Qazaxıstan), ölkəmizdən Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov, Hindistandan Yusif Şaiq, Rusiyadan Maksim Ajjavi və Almaniyadan Nikolay Nikitinin çıxışları dinlənilib.

Tədbirin bağlanışında Türkiyənin "Kunay film" şirkətinin rəhbəri Leyla Atakişiyeva qurumun fəaliyyəti barədə danışıb.

Rəşad Əzizov maraqlı fikir mübadiləsinə görə tədbir iştirakçılara təşəkkürünü bildirib, gələcək birgə fəaliyyətdə uğurlar arzulayıb.

**Lalə Azəri**

# Paytaxtımızda X Beynəlxalq Kitab Sərgisi keçirilir

Oktyabrın 2-də Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində X Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimi keçirilib. 10-cu yubiley sərgisi dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin (1494-1556) anadan olmasının 530 illiyinə həsr edilib.

Qeyd edək ki, sərgidə 18 xarici ölkədən 56 qurum, həmçinin 110 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə iştirak edir.





Mərasimdə mədəniyyət naziri Adil Kərimli, Milli Məclisin vitse-spikeri akademik Rafael Hüseynov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, millət vəkilləri, tanınmış mədəniyyət, elm, ədəbiyyat xadimləri və digər qonaqlar iştirak ediblər.

Tədbirdə əvvəlcə bədii hissə təqdim edilib. Muğam üstündə Məhəmməd Füzulinin qəzəli səsləndirilib. Həmçinin dahi bəstəkar Üzeyir Hacıbəylinin əsərləri ifa olunub.

Açılış nitqi ilə çıxış edən Xalq yazıçısı Anar sərginin əhəmiyyətini vurğulayaraq, bu ənənəvi layihənin kitabsevərlər üçün böyük bayram olduğunu deyib. Kitab mədəniyyətinin hər bir ölkə və xalq üçün vacibliyini qeyd edən yazıçı hər kəsi sərgidən faydalanmağa səsləyib. Xalq yazıçısı nitqini "Kitab həmişə yaşasın və bizi yaşatsın!" fikri ilə bitirib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

İrlandiyalı yazıçı Con Boyn, alman yazar Vulf Dorn və Azərbaycan əsilli İran yazıçısı Fəriba Vəfi sərginin "fəxri qonaq"larıdır.

Ölkəmizdən isə sərginin "fəxri yazar"ları şair Salam Sarvan və nasir Rövşən Abdullaoğludur.

Sərgidə Azərbaycanla yanaşı, Türkiyə, İtaliya, Çin, Rusiya, Koreya Respublikası, Macarıstan, Qazaxıstan, Qətər, Özbəkistan, Oman, Argentina, Mərakeş, Venesuela, Gürcüstan, Meksika, Kolumbiya, Çili və Monqolustandan tanınmış yazıçı və şairlər, elm adamları, gənc yazarlar iştirak edirlər.

Sərgi tarixində ilk dəfə yeddi gün sürəcək kitab bayramında uşaqlar və böyüklər üçün ustad dərsləri, kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, müsabiqələr, qiraət və musiqi saatları formatında ümumilikdə 327 tədbir keçiriləcək.

Oktyabrın 8-dək davam edəcək sərgi zamanı gün ərzində ziyarətçilərin metronun "Elmlər Akademiyası", "28 May" və "Koroğlu" stansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək.

Sərgi hər gün səhər saat 10:00-dan axşam saat 20:00-dək ziyarət üçün açıqdır. Giriş ödənişsizdir.

**Lalə**

# Füzulinin 530 illiyinə həsr edilən beynəlxalq konfrans

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-8 oktyabr tarixlərində keçirilən X Bakı Beynəlxalq Kitab Sərgisinin tədbir və təqdimatlarla zəngin maraqlı proqramı var.

Məlum olduğu kimi, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə bu il dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 530 illiyi dövlət səviyyəsində qeyd edilir. Builki kitab sərgisi də böyük söz ustadının yubileyinə həsr olunub.

Bakı Ekspo Mərkəzində sərginin rəsmi açılışından sonra gerçəkləşən ilk böyük tədbir də görkəmli şairin 530 illiyinə həsr edilən beynəlxalq konfrans olub. M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının təşkilatçılığı ilə keçirilən konfransı açıq elan edən kitabxananın direktoru professor Kərim Tahirov bu il 10-cu dəfə gerçəkləşən sərginin əhəmiyyətini yüksək qiymətləndirib. O, dövlətimiz tərəfindən klassik ədiblərimizin yaradıcılığına göstərilən diqqət və qayğıdan söz açıb.



Konfransda çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar vaxtilə Füzuliyə həsr etdiyi "Şairin kədəri haqqında" adlı yazısından fikirlər səsləndirib. Deyib ki, Füzuli türk ədəbiyyatının ən yüksək zirvəsidir. O, yaradıcılığında sözlərdən hər zaman zərgər dəqiqliyi ilə istifadə edib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov konfransın əhəmiyyətindən bəhs edib, kitab sərgisinin Məhəmməd Füzulinin 530 illiyinə həsr olunmasını təqdirəlayiq hal kimi dəyərləndirib.

AMEA-nın prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Məhəmməd Füzuli yaradıcılığını sənət körpüsü adlandırıb. Bildirib ki, Füzuli irsinin araşdırılması bu gün də aktualdır. Sovet dövründə şairin yaradıcılığı ilə bağlı sanballı elmi-tədqiqat işləri aparılıb. Hazırda bu istiqamətdə araşdırmalar davam etdirilir. Bu il AMEA-nın müvafiq müəssisələrində Füzuliyə həsr olunan 24 kitab hazırlanıb. Bu kitablarda şairin həyat və yaradıcılığı ilə bağlı ən son tədqiqatlar öz əksini tapıb.

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli Füzulinin əxlaqi-didaktik fikirlərinin bu gün də aktuallığını qoruyub saxladığını bildirib.

Gürcüstan Milli Kitabxanasının baş direktoru Konstantin Qamsaxurdiya Azərbaycan-Gürcüstan mədəni əlaqələrindən söz açıb. O, rəhbərlik etdiyi qurumda füzulişünaslıqla bağlı xeyli sayda məqalə və nəşrlər saxlanıldığını diqqətə çatdırıb. Deyib ki, 2015-ci ildə şairin bir sıra şeirləri gürcü dilində nəşr olunub.

Azərbaycanda Atatürk Mərkəzinin direktoru akademik Nizami Cəfərov, Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov, Macarıstan Milli Kitabxanasının direktor müavini Jüdir Gerencser çıxışlarında Füzuli irsinin araşdırılması və təbliği istiqamətində görülən işlərdən danışıblar. Füzulinin zəngin yaradıcılığının əsrlərdir Türk-müsəlman dünyasında ədəbi fikrin inkişafına töhfə verdiyi vurğulanıb.

Konfransda həmçinin şairin qəzəllərindən nümunələr səsləndirilib.

**L.Azəri**

# "Heydər Əliyev və Məhəmməd Füzuli" kitabının təqdimatı

X Bakı Beynəlxalq Kitab Sərgisinin birinci iş günündə "Heydər Əliyev və Məhəmməd Füzuli" kitabının təqdimatı olub. Kitab Türk Mədəniyyəti və İrsi Fondunun "Türk dünyasının görkəmli şəxsiyyətləri" seriyasından ilk nəşrdir.




Nəşrdə Ulu öndər Heydər Əliyevin Məhəmməd Füzuli ilə bağlı imzaladığı beş sərəncam, böyük şairin ayrı-ayrı ölkələrdə keçirilən yubiley mərasimlərinə göndərdiyi təbrik məktubları, etdiyi çıxışlar yer alıb.

Fondun prezidenti Aktotı Raimkulova Məhəmməd Füzulinin yubileyinin bütün Türk dünyasında qeyd olunduğunu bildirib. Qeyd edib ki, kitabda Füzuli irsi və onun təbliği ilə bağlı elm xadimlərinin məqalələrini görkəmli rəssamların illüstrasiyaları müşayiət edir.

A.Raimkulova onu da diqqətə çatdırıb ki, Türk Mədəniyyəti və İrsi Fondu ümumtürk ədəbi irsinin təbliği yönündəki missiyasını yerinə yetirərək "Türk ədəbiyyatının inciləri", "Türk dünyasının elmi inciləri" kimi nəşr layihələrini də həyata keçirir.

Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Qazaxıstan Prezidentinin müşaviri Malik Otarbayev, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli və başqaları çıxış edərək Heydər Əliyevin Azərbaycan mədəniyyətinə, ədəbiyyatına qayğısından danışıblar.

Sonra Bakı Bələdiyyə Teatrı aktyorlarının ifasında Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasından bir parça səsləndirilib.

# "Zolaqlı pijamalı oğlan"ı tanıyanlar üçün görüş

Uşaqların kitaba, mütaliəyə biganəliyindən şikayətçi olanları X Bakı Beynəlxalq Kitab Sərgisində "Füzuli" təqdimat zonasında sərginin fəxri qonağı irland yazıçısı Con Boyn ilə görüşdə görmək lazım idi. Əsərləri 50-dək dilə çevrilmiş Con Boynu bizim oxucular hələlik ana dilimizə çevrilmiş yeganə əsəri – "Zoloaqlı pijamalı oğlan" romanının müəllifi kimi tanıyırlar.



Daha çox yeniyetmələrin toplaşdığı təqdimat zonasında çıxış edən yazıçı öz təəssüratını belə dilə gətirdi: "Mənim əsərlərim böyüklərlə yanaşı, həm də uşaqlar üçündür. "Zolaqlı pijamalı oğlan" romanı müharibə dövründə uşaqların çəkdiyi iztirablardan bəhs edir".

Təəssüf ki, müharibənin nə demək olduğunu Azərbaycanın indiki uşaqları da yaxşı bilir. Bəlkə də elə buna görə "Zolaqlı pijamalı oğlan" əsəri irlandiyalı müəllifin qələmindən çıxsa da, onların qəlbinə və ruhuna yaxındır.

Görüşdə iştirak edən məktəblilər yazıçıya onun yaradıcılığı və ədəbiyyat haqqında suallar verdilər. Dünyaşöhrətli yazıçı həvəslə onların suallarını cavablandırdı.

Məlumat üçün bildirək ki, 53 yaşlı Con Boyn indiyədək 17 roman yazıb. "Zolaqlı pijamalı oğlan" romanı əsasında 2006-cı ildə "Miramaks" şirkəti eyniadlı film çəkib. Film bir neçə nüfuzlu kino mükafatına layiq görülüb. Roman isə iki "Irish Book Awards" və "Bisto Book of the Year" mükafatlarını qazanıb. Bütün dünyada kitab 5 milyon nüsxədən çox satılıb.

**Gülcahan**

# Kino sənayesinin dirçəlməsi üçün...



Zaman-zaman ideoloji silah, hər hansı cərəyanın diktəsi və ya yaradıcı təşəbbüslərin dəstəklənməsi üçün fərqli motivlər üzərindən inkişaf edən dünya kinosu iqtisadi maraqlarla yaşamaq mücadiləsi verib və bu gün də belədir. Sözsüz ki, bir çox yerlərdə kinoya dövlətin də dəstəyi olub və var.

Üstəlik, son illər kino aləmində mobil telefonlarla çəkilən və beləcə, həvəskarlarla peşəkarların fərqinə bir də bu kiçik monitordan nəzarət etmək istəyən festivallar yaranıb. Bu mənada qısa araşdırma zamanı görərsiniz ki, kinoteatr şəbəkələrini geridə qoyaraq sırf sosial şəbəkələrdəki baxış üzərindən böyük pullar qazanan qısa film, çarx və s. nümunələri çoxdur.

Qısası, kino marketi, bazar termini ilə desək, alıcı ilə satıcı arasındakı prosesi fərqli adlar, maraqlı görünəcək təqdimat formaları ilə bəzəsək belə, kökündə bir məsələ var: biznes.

Elə isə biz bu kollektiv sənətdə hamının qazanması üçün milli formatı necə seçmişik və ya seçə bilirikmi? Düşünürəm ki, ilk dəfə keçirilən və ətrafına ölkə kinematoqrafçıları və istehsalçıları, marketinq-menecment təcrübəsi olan və olmayan tərəfləri yığan "Baku Cinema Breeze" bu baxımdan effektli ola bilər.

Xəbər verildiyi kimi, Mədəniyyət Nazirliyi və nazirliyin tabeliyindəki Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə oktyabrın 2-dən 8-dək ölkəmizdə ilk dəfə kino sahəsində "Baku Cinema Breeze" (BCB) adlı festival keçirilir. "Baku Cinema Breeze" indiyədək paytaxtımızda təşkil olunan festivalları bir araya gətirib.

"Baku Cinema Breeze" platforması bu il 15-cisi keçirilən Bakı Beynəlxalq Film Festivalı, VIII "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı, VII ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı və Türk Animasiyası Festivalını əhatə edir.

BCB festivalının ilk günü ümumi şəbəkənin işlək mexanizmə çevrilməsinə zəmin üçün bir növ dialoq, müzakirə mərhələsi də hesab oluna bilər.

Kinosevərlərlə kinematoqrafçıların, istehsalçı tərəflərlə istehlakçıların ortaq maraqlarının meydan verildiyi tədbirdə rəngarəng sərgi diqqət çəkdi. Burada kino şirkətləri, prodakşnlar, studiyalar ilə yanaşı, əlaqələndirici qurumların da stendləri vardı.

***

İlk tədbir TÜRKSOY-un iştirakı ilə türk dövlətlərinin film sənayesinin təqdimatı oldu, mütəxəssislər maraqlı müzakirələr apardılar.

Təşkilatın kino məsələləri üzrə mütəxəssisi kimi Aliyə Uvalzxanova ortaq dil və mədəniyyətin dünya kino bazarına çıxarılması istiqamətində layihə barədə təqdimat etdi. Bu zaman o, daha çox ilkin mərhələ kimi sosial şəbəkələr üzərindən geniş auditoriyanın yığmaq tərəfdarı olduğunu, uzun tarixi faktlar, araşdırma mətnlərinin qısa hekayələr və onların vizual təsvir ilə ifadəsinin effektivliyinə diqqət çəkdi, hədəf kütlə kimi gənc nəsil üzərində xüsusilə dayandı.

"Kino mədəni irsin, tarixi həqiqətlərin, milli-mənəvi dəyərlər sisteminin təbliğatı üçün ən əlverişli və sürətli platformadırsa, biz bu yolla gəncliyin maariflənməsindən təhsilinə qədər ən müxtəlif istiqamətlərdə dəstək layihələri də yarada bilərik" – deyən çıxışçı müxtəlif ölkələrdən olan həmkarlarının suallarını da cavablandırdı.

Panel müzakirələr zamanı ölkəmizdə yenicə fəaliyyətə başlayan "Turan Masters elektron idman təşkilatı, "Turkic Game Jam" – türk ölkələrinin oyun hakatonu kimi şəbəkələrin təqdimatı da oldu. Hər iki şirkətin təmsilçiləri fəaliyyət mexanizmləri, iş prinsipləri, tərəfdaşları və mübadilə proqramları haqqında məlumat verdilər.

Özbəkistan İnnovasiya və Texnologiya Mərkəzinin menecerləri təcrübələrindən danışdılar. Daha çox animasiya istehsalçıları üçün baza rolunu oynayan şirkət təmsilçiləri bazarı müəyyən etməklə ölkəmizlə əlaqələrə maraqlı olduqlarını da vurğuladılar.

CINEMO Mobil Film Festivalının təqdimatını edən festivalın təsisçisi və rəhbəri Ruslan Sabirli bu il ikincisi baş tutan layihəyə böyük maraq



olduğunu bildirdi. Yaradıcı gənclərin dəstəklənməsi, mobil kino istehsalının təbliği, istedadlı mobil fotoqraflar və kinematoqrafçıların üzə çıxarılması, istedadlı gənclər arasında yaradıcılıq əlaqələrinin qurulması kimi məramları olan layihənin ilkin mərhələdə öz hədəflərinə çatdığını dedi.

***

"Regionda animasiyanın inkişafı" adlı panel müzakirədə də maraqlı məqamlar müzakirə olundu.

ANİMAFİLM Beynəlxalq Animasiya Festivalının təsisçisi və direktoru Rəşid Ağamalıyevin moderatorluğu ilə keçən müzakirədə ATA (Association of Turkic Animation) – Türk Animasiya Assosiasiyası haqqında bilgi verildi. Bildirildi ki, assosiasiyanın TÜRKSOY-a daxil olan ölkələrin ortaq layihələrinin yer aldığı animasiya film qurumu kimi mühüm hədəfləri var.

Qurumun sədri, prodüser və animator Oktay İyusibov bildirdi ki, milli animasiya sənayesini inkişaf etdirmək, animasiya vasitəsilə uşaqlarda, yeniyetmələrdə və böyüklərdə kreativliliyi təşviq etmək, animasiya studiyalarına, animasiya peşəkarlarına və həvəskarlara dəstək olmaq əsas məramdır.

TÜRKSOY-un baş katibinin müşaviri Kayrat Mukanov, üzv ölkələrin animasiya üzrə tanınmış simaları – Pavel Kim (Özbəkistan), Aybek Dairbekov (Qırğızıstan), Anita Çernik (Qazaxıstan) animasiya sənayesi, istehsalat prosesi, satış bazarı barədə maraqlı məlumatlar verdilər.

İlkin mərhələdə ortaq dil mühiti yaratmaq üçün birgə işlərin daha çox tarixi, qəhrəmanlıq və şifahi xalq ədəbiyyatlı nümunələri əsasında çəkilməsini məqsədəuyğun saydılar. Təşviqedici layihələr kimi festivalların, ssenari müsabiqələrinin effektivliyi vurğulandı.

Animatorlar ölkələrində bu sahəyə dövlət dəstəyi ilə yanaşı, iri şirkətlərin də sərmayəçi qismində təmsil olunduğunu vurğuladılar. Bundan savayı, dəstək proqramları çərçivəsində həmin şirkətlərin vergidən azad olunması və digər güzəştlərə də diqqət çəkdilər.

Panelin sonunda çıxışçılar əsas etibarilə mütəxəssislərdən ibarət dinləyicilərin suallarını cavablandırdılar.

Aparılan söhbətlərdən belə qənaətə gəlmək olar ki, istənilən halda kinoda istehsalatın davamlı inkişafı, ən azı, prosesin işləkliyi üçün ilk baza məhz dövlət dəstəyi olmalıdır.

**Həmidə**

# Kino bazarı yaradıcı sənayelərin inkişaf edən sahələrindən biridir

"Baku Cinema Breeze" Beynəlxalq Film Festivalı çərçivəsində Şərqi və Mərkəzi Asiya ölkələrinin kino bazarı keçirilir. Əsas məqsəd həmin ölkələrdə kino sənayesi sahəsində fəaliyyət göstərən biznes subyektlərinin sayının artırılması, onların arasında maraqlı yeni layihələrin həyata keçirilməsidir.

Bunu Mədəniyyət Nazirliyi Yaradıcı sənayelər və rəqəmsal inkişaf şöbəsinin müdiri Rəşad Əzizov oktyabrın 3-də jurnalistlərə müsahibəsində deyib.

Onun sözlərinə görə, bu gün kino bazarı dünyada yaradıcı sənayelərin ən inkişaf edən sahələrindən biridir: "Burada iqtisadi göstəricilər artır. Ölkəmizdə hazırda sosial-iqtisadi inkişaf strategiyasının icrası çərçivəsində yaradıcı sənayelərin inkişafı ilə bağlı olan tədbirlər, o cümlədən hədəflərdən biri kino sənayemizdə iqtisadi göstəricilərin artırılması nəzərdə tutulur. Burada həm məşğulluğun artırılması, həm də yeni biznes oyunçuların artırılması hədəf kimi qoyulur. Ona görə də hazırda bu tədbirdə bir neçə dövlət qurumunun birgə layihələr üzərində işləməsi, fikrimcə, bizə böyük ümidlər verir".

# Vətəndaşların növbəti qəbulu Ağcabədidə olacaq

Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli tərəfindən oktyabrın 30-da saat 10:00-da Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində (Üzeyir Hacıbəyli prospekti, 91) Ağcabədi, Ağdam, Bərdə, Tərtər və Laçın rayonlarından olan vətəndaşların qəbulu keçiriləcək.

Vətəndaşlar oktyabrın 24-dək nazirliyin info@culture.gov.az elektron poçt ünvanı və (012) 493-43-98 telefon nömrəsi vasitəsilə müraciət etməklə qəbula yazıla bilərlər.

# Sabirabaddakı "Hophopnamə" kitab mərkəzi sərgidə iştirak edir

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 2-8 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində X Bakı Beynəlxalq Kitab Sərgisi keçirilir.




Mil-Muğan Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən "Hophopnamə" Kitab Mərkəzi (Sabirabad şəhəri) sərgidə xüsusi stendlə təmsil olunur.

Sərginin açılış günündə Azərbaycan Yazıçılar Birliyinin sədri Xalq yazıçısı Anar, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa, Yazıçılar Birliyinin birinci katibi Xalq yazıçısı Çingiz Abdullayev, AYB-nin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, yazıçı-dramaturq Elçin Hüseynbəyli və başqa yazıçılar, şairlər mərkəzin stendi ilə yaxından tanış olublar.

Ziyarətçilərə mərkəzin fəaliyyəti haqqında məlumat verilib. Bir sıra ziyarətçilər kitab evinin fəaliyyətini yüksək qiymətləndiriblər.

# Salyan kuklaçılarının yeni "Cırtdan"ı

Salyan Dövlət Kukla Teatrında yeni hazırlanan "Cırtdan" tamaşasına daxili baxış keçirilib.



Azərbaycan xalq nağılı əsasında hazırlanan tamaşanın quruluş və səhnə tərtibatını Estoniyada yaşayan həmyerlimiz, Əməkdar artist Rauf Avşar verib.

Birhissəli uşaq tamaşasının quruluşçu rəssamı Mart Aya, musiqi tərtibatçısı isə Elvin İsayevdir. Canlı plan və klassik kukla texnikası üslubunda hazırlanan yeni quruluşda personajları Nurlan Məlikov, Röyal Qurbanov, Nahid Rüstəmbəyli canlandırırlar.

Xatırladaq ki, "Cırtdan" tamaşası bundan əvvəl də teatrın repertuarında olub.

# Qazax səhnəsində "Ezop"un məşqləri

Qazax Dövlət Dram Teatrında "Ezop" əsəri üzərində məşqlərə başlanılıb. Braziliya yazıçısı və dramaturqu Qilyermo Fiqeredonun adıçəkilən pyesinə Əməkdar artist Xəzər Gəncəli quruluş verir.



Səhnə tərtibatçısı Aysan Omarova, musiqi tərtibatçısı Vahid Bayramovdur. Rolları Xaqan Qurbanov, Aytac Cəfərova, Vüsal Hüseynov, Məlahət Vəliyeva, Sərdar Rüstəm və Rüfət Əhmədov ifa edəcəklər.

İlin sonunadək tamaşaçıların ixtiyarına verilməsi nəzərdə tutulan səhnə əsərində əsas məsələ həqiqətin və ədalətin olmadığı yerdə mübarizənin labüdlüyü diqqət mərkəzinə çəkilir. Buna görə də ədalət, həqiqət olmayan yerdə azadlıq axtarmaq çox çətin və mümkünsüzdür.

Qədim yunan filosofu Ksanf fikirlərini Ezopun təmsilləri əsasında şagirdləri ilə bölüşür. O hər dəfə çətin vəziyyətə düşəndə Ezopun köməyi ilə ağır durumdan xilas olur, bunu yalnız azadlıq uğrunda edir, qarşılığında Ksanfdan yalnız azadlıq istəyir. Lakin Ksanf hər dəfə Ezopu başqa bir bəhanə ilə aldadır və yanında saxlayır. Sonda Ezop azadlığı dadır. Amma çox az...

# Muxtariyyətin 100 illiyinə həsr olunan rəsm müsabiqəsi

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş "Art Battle" adlı rəssamlıq müsabiqəsi keçirilib.



"Naxçıvan gənclərin fırçası ilə" devizi altında Həsən Əliyev adına Zəngəzur Milli Parkında – Batabat yaylağında (Şahbuz rayonu) təşkil olunan müsabiqənin sonuncu günündə onlayn qeydiyyatdan keçmiş 15 gənc istedadı nümayiş etdirib.

NMR Gənclər və İdman Nazirliyinin aparat rəhbəri İlhamə Nəzərova və Naxçıvan Müəllimlər İnstitutunun müəllimi Murad Babayev müsabiqənin gənclərin yaradıcılıq potensialının yüksəldilməsində rolundan danışıblar.

Gənclər muxtar respublikanın tarixini, mədəniyyətini və təbiətini özündə təcəssüm etdirən rəsmlər çəkiblər. Sevinc Fərzəliyeva və Yasəmən Səfərova I, Nuray Abbasova və Leyla Əhmədova II, Sunay Qasımova və Aysu Bağışova II yerə layiq görülüblər. Qaliblərə diplom və hədiyyələr təqdim olunub.

# Vətən müharibəsinin ilk qazi şəhəri

## Cəbrayıl "Şəhər günü"nü sakinləri ilə qeyd edir

əvvəli səh. 1-də

Bu sıraya tezliklə işğal altında qalan digər şəhərlərimizin adı da yazılacağına inamımız tam idi. Çünki bu, Vətən müharibəsi, yurd yerlərimizin yağı tapdağından xilası üçün başlanan Qurtuluş savaşı idi. Bu savaşın hədəfi Azərbaycanın bütün ərazisi üzərində suverenliyinin bərqərar olması, ölkəmizin torpaq bütünlüyünün bərpası idi.

Cəbrayıl şəhərinin düşməndən azad edilməsi bu yolda qət edilən ilk mühüm mərhələ oldu.

Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bu tarixi hadisənin xüsusi əhəmiyyətini vurğulamışdı: "Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi. Cəbrayıl bizimdir! Bu gün cəbrayıllılar, əlbəttə ki, sevinc içindədirlər, necə ki, bütün Azərbaycan xalqı. Bu, sevinc göz yaşlarıdır. 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir... Biz bu günlər xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq, tarixi ədaləti



bərpa edirik. Çünki Qarabağ torpağı bizim əzəli tarixi torpağımızdır. Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, yaradıb, qurub, tikib. Ancaq uzun illər ərzində – 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib... kənd və şəhərləri dağıdıblar... Biz onları bərpa edəcəyik. Bu bölgələrə həyat qayıdacaq...".

Yağı tapdağından qurtuluşun dördüncü ildönümünü yaşayan torpaqlara artıq həyat, quruculuq, abadlıq, ən əsası isə, bu torpaqların sakinləri qayıdır...

Vətən müharibəsində əldə olunmuş tarixi Qələbəni əbədiləşdirmək və işğaldan azad edilmiş şəhərlərin günlərini təsis etmək məqsədilə dövlət başçısı tərəfindən 31 iyul 2023-cü il tarixində sərəncam imzalanıb. Sərəncamla 4 oktyabr Cəbrayıl Şəhəri Günü elan olunub.

Bu gün – 2024-cü il oktyabrın 4-ü Cəbrayıl ilk "Şəhər günü"nü doğma sakinləri ilə qeyd edir. Sentyabrın 26-dan Cəbrayıl şəhəri də artıq Böyük Qayıdışın növbəti ünvanıdır. Ötən müddətdə Cəbrayıl şəhərinə üç köç karvanı yola salınıb, 117 ailə (364 nəfər) burada yeni inşa olunan yaşayış kompleksində məskunlaşıb.

4 oktyabr təkcə cəbrayıllıların deyil, dörd il əvvəl dövlətimizin başçısının dediyi kimi, bütün Azərbaycan xalqının sevincli günüdür.

Bu günü təqvimimizə qanı-canı bahasına yazan şəhidlərimizi bir daha rəhmətlə yad edir, qəhrəman qazilərimizə sonsuz qürur duyuruq. Böyük Zəfərin ilk müjdəsi olmuş günümüz mübarək!

# Volqa-Xəzər İpək Yolu Dəhlizinin irsi – ikinci subregional konfrans

Oktyabrın 3-də Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan Mədəniyyət Nazirliyi və UNESCO-nun Dünya İrs Mərkəzinin birgə təşkilatçılığı ilə Volqa-Xəzər İpək Yolu Dəhlizi üzrə ikinci illik subregional konfrans və praktik sahə seminarı işə başlayıb.

Tədbirdə Azərbaycan, Qazaxıstan, Rusiya Federasiyası, Türkmənistan və İran nümayəndələri iştirak edirlər.

Konfransın təşkilində məqsəd "Volqa-Xəzər İpək Yolu Dəhlizinin transsərhəd nominasiyası" üçün təqdim olunacaq mədəni irs obyektlərini müəyyən etmək, dəhlizə daxil olan 5 ölkədən hökumət nümayəndələri, milli əlaqələndiricilər, yerli və beynəlxalq ekspertlərlə müvafiq sənədlər ətrafında fikir mübadiləsi aparmaqdır.

Artıq ikinci dəfədir ki, Bakı Volqa-Xəzər İpək Yolu Dəhlizi üzrə illik subregional konfransa ev sahibliyi edir.



Bunu tədbirdə çıxışı zamanı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Səbinə Hacıyeva deyib.

Azərbaycan tarixi abidələrin qorunması üzrə UNESCO ilə də sıx əməkdaşlıq etdiyini, ölkəmizin bəzi obyektlərinin Dünya İrs Siyahısına salındığını xatırladan Dövlət Xidmətinin rəisi konfrans iştirakçılarının diqqətini otuzillik işğaldan azad edilən torpaqlarımızdakı mədəni irslə bağlı vəziyyətə yönəldib.

Bildirilib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli Qərarına əsasən, işğaldan azad edilmiş ərazilərdə 705 tarix və mədəniyyət abidəsi dövlət qeydiyyatına alınıb. 2020-ci ildə işğaldan azad edilmiş, eləcə də 2023-cü ildə antiterror tədbirlərindən sonra nəzarətə götürülmüş ərazilərdə 542 abidənin, o cümlədən 368 tarixi, memarlıq və arxeoloji obyektin inventarizasiyası aparılıb.

"Dövlət Xidməti tərəfindən 2020-ci və 2023-cü illərdə aparılmış inventarizasiyanın yekunlarına əsasən, ilkin mərhələdə 300-dən çox tarix-mədəniyyət abidəsinin vəziyyətinin təhlili nəticəsində müəyyən edilib ki, dövlət reyestrinə daxil olan 51 abidə tamamilə məhv edilib, 120-dən çox obyekt qismən dağıdılıb və ya zərərə məruz qalıb. Bu statistik rəqəmlər ilkin nəticələrdir və hazırda müvafiq işlər davam etdirilir", – deyə S.Hacıyeva əlavə edib.

Qeyd edək ki, oktyabrın 6-dək davam edəcək konfrans və seminarın gündəliyinə Volqa-Xəzər İpək Yolu Dəhlizinə dair fəaliyyət istiqamətində sənədlərin və tövsiyələrin hazırlanması, bu dəhliz üzrə Dünya İrs Siyahısına transmilli nominasiya seçimi komponentlərinin müəyyən edilməsi və s. məsələlər daxildir.

2005-ci ildən UNESCO-nun Dünya İrs Komitəsinin təşəbbüsü ilə "Transsərhəd İpək Yolu abidələrinin Dünya İrs Siyahısına nominasiyası" proqramı həyata keçirilir. Azərbaycan 2018-ci ildə proqrama qoşulub.

# Yerlərdən qısa xəbərlər



Lənkəran-Astara Regional Mədəniyyət İdarəsinin (RMİ) və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Lerik rayon təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə Vətən müharibəsinin şəhidi Tural Əhmədovun Lerik rayonunun Anbu kəndindəki ata ocağı ziyarət olunub. Tural Əhmədovun valideynləri ilə görüş zamanı şəhidə həsr olunmuş guşəyə baxış keçirilib.

***



Astara rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə M.Ə.Sabir adına şəhər 1 saylı tam orta məktəbdə "Nağıl saatı" keçirilib. Uşaq şöbəsinin əməkdaşı şagirdlərə "Qızıl payız və kirpi", "Siçan və pişik" nağıllarını danışıb. Sonda nağılları daha diqqətlə dinləyən və yaxşı danışan şagirdə jurnal hədiyyə edilib.

***



Vətən müharibəsi şəhidi Nurlan Rəhimovun şəhadətə qovuşmasının dördüncü ildönümü münasibətilə Astara şəhər O.Kazimi adına Uşaq musiqi məktəbinin kollektivi qəhrəmanın ailəsini ziyarət edib. Ziyarət zamanı mədəniyyət işçiləri şəhidin ailə üzvləri ilə görüşüb, onların qayğıları ilə maraqlanıblar.

**Hazırladı: N.Məmmədli**

# Şəki teatrı payız tətilində məktəblilərə iki tamaşa göstərəcək



Şəki Dövlət Dram Teatrı payız tətili günlərində məktəbli tamaşaçılara Azərbaycan dramaturgiyasının banisi M.F.Axundzadənin "Hekayəti-xırs quldurbasan" komediyası əsasında səhnələşdirilmiş eyniadlı tamaşanı təqdim edəcək.

Tamaşanın quruluşçu rejissoru Orxan Həmidli, quruluşçu və geyim üzrə rəssamı Sahib Əhmədov, baletmeysteri Çingiz Novruzəliyev, musiqi tərtibatçısı Zeynəb Orucovadır. Rolları Əməkdar artist Rəhim Qocayev, aktyorlar Xəyal Salahov, Nərmin Abbasova, Çingiz Novruzəliyev, Lalə Məmməd, İlkin Rüstəmov, Rəşid Mirizadə və başqaları ifa edirlər.

Hans Kristian Andersenin nağılı əsasında səhnələşdirilmiş "Kralın yeni paltarı" tamaşası da bərpa edilərək tətil günlərində tamaşaçılara təqdim olunacaq.

Tamaşanın quruluşçu rejissoru Arzu Əhmədova, quruluşçu rəssamı Nicat Məmmədov, geyim üzrə rəssamı Elman Rəşidli, baletmeysteri Çingiz Novruzəliyevdir. Səhnə əsərində Əməkdar artist Rəhim Qocayev, aktyorlar Fərahim Fətəliyev, Rəsul Məmmədrəhimov, Xəyal Salahov, Günay Novruzəliyeva və digərləri rol alır.

# Şuşaya çəkilən yol layihəsi mükafata layiq görülüb



Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu layihəsi Avropa və Mərkəzi Asiya Regional Mükəmməllik Mükafatlarında "İnnovativ inşaat metodologiyası" nominasiyasında 1-ci yeri tutub.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) bildirilib ki, Beynəlxalq Yol Federasiyası (BYF Qlobal) tərəfindən keçirilən müsabiqədə qaliblər nəqliyyat sektoru ekspertlərindən ibarət beynəlxalq münsiflər heyəti, habelə BYF Qlobalın könüllüləri tərəfindən qiymətləndirilərək seçilib.

Sentyabrın 26-da Bolqarıstanın Plovdiv şəhərində baş tutan mükafatlandırma mərasimində AAYDA-nın İnvestisiya Baş İdarəsi Xarici İnvestisiya şöbəsinin rəisi Emin Məmmədzadə iştirak edib.

Tədbirdə qeyd olunub ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində ümumi uzunluğu 3094,3 km olan 45 avtomobil yolu layihəsinin tikintisi yerinə yetirilir. İndiyədək ümumi uzunluğu 254,2 km təşkil edən 7 avtomobil yolu layihəsi başa çatıb.

# Bir-birimizi sənətlə tanıyaq...

## "Xəzər" Biennalesi platforması arealı genişləndirir



Əslində, Xəzəryanı dövlətlər ifadəsini eşidəndə fikrimiz, ilk növbədə, siyasət aləminə yönəlir. Siyasət aləmi belədir: bu məsələyə birbaşa olaraq Xəzərə aidiyyəti olmayan ölkələr qoşula bilməz. Sənət aləmi isə çərçivələr tanımır. Söhbət "Xəzər" Biennalesindən, bu platformaya qoşulan ölkələrin sayının artmasından gedir.

Xəbər verdiyimiz kimi, oktyabrın 1-də uzunillik fasilədən sonra paytaxtımızda bərpa olunan "Xəzər" Biennalesi çərçivəsində Azərbaycan Milli İncəsənət Muzeyində həm mövzusuna, həm janrına, həm də əhatə coğrafiyasına görə çox maraqlı sərgi açılıb.

Mədəniyyət Nazirliyi, Azərbaycan Rəssamlar İttifaqı (ARİ) və ittifaqın təşəbbüsü ilə yaradılan Beynəlxalq Rəssamlar Klubunun təşkilatçılığı ilə baş tutan sərgidə 9 ölkənin rəssamlarının əsərləri nümayiş olunur. Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan, Türkiyə, Bəhreyn və Macarıstandan olan rəssamların abstarktizmdən, primitiv realizmdən başlamış ta sürrealizmədək fərqli janrları əhatə edən onlarla tablosu ekspozisiyada yer alıb.

Bəri başdan deyək ki, sərgi hələ açılmamışdan diqqəti cəlb etmişdi. Azərbaycan rəssamları, təsviri incəsənətə ömür vermiş şəxslər, tələbələr, ziyalılar sərginin açılışına toplaşmışdılar. Mədəniyyət naziri Adil Kərimli d' mərasimdə iştirak edirdi.

Qonaqları salamlayan Milli İncəsənət Muzeyinin direktoru Əməkdar mədəniyyət işçisi Şirin Məlikova diqqətə çatdırdı ki, əslində, "Xəzər" Biennalesi platformasında tədbirlər sentyabrın 28-də Muzey Mərkəzində açılmış "Azərbaycan rəssamlarının abstrakt incəsənət təcrübəsi" sərgisi ilə başlanıb. Bundan əlavə, doqquz ölkənin rəssamları dəyirmi masada yaxın gələcək üçün yaradıcılıq planları müzakirə ediblər.

ARİ-nin sədri Xalq rəssamı Fərhad Xəlilov "Xəzər" Biennalesinin təməlinin beş Xəzəryanı dövlət tərəfindən hələ 1989-cu ildə qoyulduğunu yada saldı. O, platformanın artıq daha geniş müstəvidə fəaliyyət göstərəcəyini deyərək, bu istiqamətdə biennale iştirakçılarının mədəniyyət



naziri ilə görüşündə müzakirə olunmuş məsələlərin məhsuldar nəticə verəcəyinə əmin olduğunu bildirdi: "Əgər Mədəniyyət Nazirliyinin dəstəyi olmasaydı, biz bu işləri görə bilməzdik. Biennale sərgisinin bir qədər uzun davam etməsini istədik ki, gəlmək istəyənlər vaxt tapa bilsinlər. Əsas məqsədimiz Azərbaycan təsviri incəsənətini dünyada tanıtmaqdır".

Diqqətə çatdırıldı ki, genişlənən platformaya Türkiyə, eləcə də bu ildən Bəhreyn və Macarıstan rəssamları da qoşulublar. Hər üç ölkə ARİ-nin yaratdığı beynəlxalq kluba üzvdür.

Tacikistan Rəssamlar İttifaqının sədri Nargiz Həmidova öz çıxışında istənilən yaradıcı görüşün dostlar üçün bayram olduğunu söylədi. O, həmkarı F.Xəlilovun təşəbbüsü ilə Beynəlxalq Rəssamlar Klubunun yaradılmasını alqışladığını, tacik rəssamların da klubda yaxından iştirak edəcəyini dedi.

"Xəzər" Biennalesi çərçivəsində açılan sərgiyə gəlincə, Azərbaycan rəssamları Nazir Rəhmanov, Görüş Babayev, Zərnişan Yusif, Siruz Mirzəzəda, Eldar Qurbanov, Özbəkistandan Möhəmməd Fizuli, Qayrat İbrahimov, Sərvər Yuldaşov, Mirvohit Mirsaitov, Türkmənistandan Xocamühəmməd Çuriyev, Qəhrəman Goçmuratov, Türkiyədən Çarı Murat və Osman Hamdi Bəyin əsərləri, nə qədər fərqli janrlarda işlənilib, müxtəlif epoxaları əks etdirsə də, ana xətt olaraq bir hiss tablolardan süzülür: bir-birimizi tanıyaq və sevgi ilə yanaşaq.

Tacikistandan Nargiz Həmidova, Laylo Qurbanova, Qazaxıstandan Nurbek Jardemov, Macarıstandan Andrea Szabo, Bəhreyndən Abdul Karim əl-Orrayed, Ömər əl-Rəşid, Qırğızıstandan Kadır Bekov, Kurbanbek Usubaliyev kimi isimlər ilə tanışlıq bu sərginin ən böyük özəlliklərindən biri idi.

Gürcüstan rəssamlarının işləri ilə sərgi salonunda quraşdırılmış geniş monitorda videoslayd vasitəsilə tanış olmaq mümkündür.

Tanışlıq demişkən, sənətsevərlərin sərgini ziyarət etmək üçün kifayət qədər – oktyabrın 15-dək vaxtı var.

**Gülcahan**

# 65-dən sonra üçün




Bakının bir addımlığında yerləşən Sumqayıta uzun tıxacla gedib çıxdım. Beləcə, iki şəhər arasında evdən işə, işdən evə gedib-gələnlərin nələr çəkdiyini hiss edərək özümü, gec də olsa, hadisə yerinə – Sumqayıt Dövlət Dram Teatrına yetirdim. Sözsüz ki, mühüm bir səbəb vardı. Teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmovun yubiley gecəsi (30 sentyabr) və haqqında nəşr olunan kitabın təqdimatı.

Bəri başdan deyim, tədbir mənə xoş təsir bağışladı. Statik yanaşılmamış, kollektiv əmək və ən əsası, baş rejissora səmimi münasibət, bir növ, "yubileyçilik"dən uzaq bir sənət axşamı idi. Teatr adamları buna öz aralarında "kapustnik" (məzhəkə-tamaşa) deyirlər və xüsusi ovqatda hazırlaşırlar.

Artıq yavaş-yavaş unudulan bu ənənə rejissorun yubileyində mənim kimi ora yığışan bütün teatr adamlarını da keçmiş dövrə apardı.

Teatr adamları demişkən, mərasimdə Teatr Xadimləri İttifaqının, ölkənin bir sıra teatrlarının təmsilçiləri, eləcə də şəhər icra hakimiyyətinin nümayəndələri, şəhər ziyalıları və təbii ki, Mədəniyyət Nazirliyinin təmsilçiləri də iştirak edirdilər.

Rəsmi deyə biləcəyimiz hissədə yazıçı-dramaturq Hafiz Ataxanlının Firudin Məhərrəmovun yaradıcılığını əks etdirən "Altıncı hücrənin remarkası" kitabının təqdimatı oldu.

Kitabda görkəmli rejissor, Xalq artisti, iki dəfə "Qızıl dərviş" mükafatı laureatı, "Tərəqqi" medalçısı, Prezident mükafatçısı Firudin Məhərrəmovun 65 illik ömrünün sənət səhifələri əksini tapıb. O cümlədən rejissorun quruluş verdiyi tamaşalar haqqında yazılar, onun dövri mətbuatda dərc olunan müsahibələri ("Mədəniyyət" qəzetinə də) kitabda yer alıb.

Əməkdar mədəniyyət işçisi, professor Rafiq Yusifoğlu, yazıçı-ssenarist, Əməkdar jurnalist Eyruz Məmmədov, Sumqayıt Şəhər İcra Hakimiyyəti yanında İctimai şuranın sədri, yazıçı Hümbət Quliyev və başqaları çıxış edərək Sumqayıtın ədəbi və mədəni mühitinin zənginliyindən, sənətə, sənətkara həsr olunmuş kitabın məziyyətlərindən danışıb, yubilyara yeni yaradıcılıq uğurları arzuladılar.

Sonra yubiley axşamının aparıcıları – Əməkdar artistlər İlahə Səfərova və Cəlal Məmmədov yubilyarı təbrik elədilər.

Qonaqlar F.Məhərrəmovun həyat və yaradıcılığı haqqında qısa videoçarxa baxdılar. Ümumilikdə tədbir boyu həm monitor vasitəsilə, həm də canlı olaraq rejissorun quruluş verdiyi tamaşalardan parçaları izlədik.

Səbəbkara təbrik çıxışları isə çox idi. Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Xalq artisti Hacı İsmayılov, Xalq artisti, görkəmli teatr rejissoru Cənnət Səlimova, yazıçı-dramaturq, Əməkdar incəsənət xadimi Əli Əmirli və başqa söz alanlar F.Məhərrəmovun qurduğu tamaşalar, özünəməxsus rejissor dəst-xətti haqqında danışdılar.

Hacı İsmayılov ittifaqın medalını yubilyara təqdim etdi.

Dost teatrların şarjları da maraqla qarşılandı.

Akademik Milli Dram Teatrından Xalq artisti Sabir Məmmədov, teatrın truppa müdiri Elnur Məmmədov, İrəvan Dövlət Azərbaycan Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İftixar Piriyev, Bakı Bələdiyyə Teatrının baş rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov, truppa müdiri İsmayıl Atakişiyev, Mingəçevir Dövlət Dram Teatrının direktoru Əməkdar artist İntiqam Soltan, uzun illər Sumqayıt Dövlət Dram Teatrında çalışan, indi yaradıcılıq yolunu Mingəçevir teatrında davam etdirən Xalq artisti Valeh Kərimov səbəbkara və tamaşaçılara xoş anlar bəxş edən bədii təbriklər təqdim etdilər.

Gecənin musiqili qonaqları Natiq Məmmədov, Elay Xasıyev və Şəmistan Muradxanlı, eləcə də Sumqayıt Dövlət Dram Teatrının gənclərinin yubileyə özəl səhnəcikləri də maraqla qarşılandı.

Sonda çıxış edən F.Məhərrəmov unudulmaz anlara görə hər kəsə təşəkkürünü bildirdi, səhnədə, Sumqayıt teatrında olmağın, ömrünü bu peşəyə həsr etməyin verdiyi məmnunluqla "Azərbaycan teatr sənətinə xidmət etmək, müəllimlərimdən öyrəndiklərimlə yola çıxaraq yetişdiyim bu məqama görə doğma tamaşaçılara və qurub-yaratmaq eşqi ölməyən teatr fədailərinə sonsuz təşəkkür edirəm", – deyib alqışlar altında təzim etdi.

**Həmidə Nizamiqızı**

# Üzeyir Hacıbəyli festivalından yadda qalan daha bir musiqi axşamı



Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 18-28 sentyabr tarixlərində keçirilən Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalının əksər konsertlərinə ev sahibliyi etmiş M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında festivalın bağlanışı da sənətsevərlərə xoş təəssürat bəxş edib.

Əməkdar artist Əyyub Quliyevin dirijor pultu arxasında olduğu konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solistlər – Xalq artisti Murad Adıgözəlzadə (piano), Əməkdar artist Elvin Hoca Qəniyev (violin), Dmitri Sitkovetski (violin, Böyük Britaniya) öz bənzərsiz ifaları ilə sürəkli alqışlar qazanıblar.

Proqramda P.İ.Çaykovskinin "Romeo və Cülyetta" uvertüra-fantaziyası, E.Korngoldun "Violin və orkestr üçün konsert D dur op.35" (Bakıda ilk ifa), F.Mendelsonun "Violin, piano və simli orkestr üçün ikili konsert d moll" əsərləri, Q.Qarayevin "Yeddi gözəl" baletindən "Adagio" və "Vals" (violin, piano və orkestr üçün işlənmə) səsləndirilib.

# "Yaşıl dünya naminə bir olaq!"

Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyi Bakı Şəhər İcra Hakimiyyəti və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin dəstəyi ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində mütəfəkkir ədib Mirzə Fətəli Axundzadə bağında tədbir təşkil edib.



"Yaşıl dünya naminə bir olaq!" adlı tədbirin məqsədi ictimaiyyətin diqqətini ətraf mühitin, yaşıllıqların qorunmasına yönəltmək, insanları ekoloji problemlərə həssas yanaşmağa səsləmək, xüsusilə yeniyetmə və uşaqları bu mövzuda maarifləndirməkdir.

Muzeydən bildirilib ki, dünyaşöhrətli violonçel ifaçıs, dirijor M.Rostropoviç həm də təbiət aşiqi və xeyriyyəçi kimi tanınıb. Maestro "Tropik meşə fondu", "Dünya heyvanların rifahı fondu", "Nəsli kəsilməkdə olan dəniz heyvanlarının müdafiəsi fondu" üçün bir sıra konsertlər vermişdi. Keçirilən tədbir də Rostropoviçin təbiətə qayğıkeş münasibətini bir daha yada salıb.

Tədbirdə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev çıxış edərək Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə elan olunan "Yaşıl dünya naminə həmrəylik ili"nin əhəmiyyətindən söz açıb.

Sonra 1 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təsviri sənət qalereyası şagirdlərinin əl işlərindən ibarət "Yaşıl dünya naminə" adlı sərgisi, "Odlar yurdu" xor və "Xarıbülbül" rəqs kollektivlərinin ifasında mövzuya həsr edilmiş kompozisiya nümayiş olunub.

Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin xalq çalğı alətləri şöbəsi şagirdlərinin ifasında konsert proqramı təqdim olunub.

Tədbir paytaxtın sakinləri və qonaqları tərəfindən maraqla qarşılanıb. Onlara muzey tərəfindən hazırlanmış məlumat xarakterli liflet paylanılıb.

# 70 yaşa 70 əsərlə – rəssamın yubiley sərgisi

## Adil Əsədlinin yaradıcılığında tarixi mövzular üstünlük təşkil edir

Azərbaycan Rəssamlar İttifaqının (ARİ) Vəcihə Səmədova adına sərgi salonunda rəssam Adil Əsədlinin 70 illik yubileyinə həsr olunan sərgi açıldı. Sərgidə rəssamın müxtəlif illərdə yaratdığı 70 rəngkarlıq və qrafika əsəri nümayiş olunur.



Açılış mərasimində çıxış edən ARİ-nin katibi Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamları Arif Hüseynov, Aydın Rəcəbov, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Adil Əsədlinin həyat və yaradıcılığından danışdılar.

Bildirildi ki, Adil Beytulla oğlu Əsədli 1954-cü il iyulun 21-də Lənkəran şəhərində anadan olub. Ə.Əzimzadə adına Rəssamlıq Məktəbini, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Bədii qrafika fakültəsini bitirib. Lənkəranda yaşayıb-yaratsa da, onun uğurları çoxdan respublikamızın sərhədlərini aşıb. Müxtəlif beynəlxalq və respublika miqyaslı sərgilərdə mükafatlara layiq görülüb. Əsərləri Türkiyə, İran, Rusiya, ABŞ, Fransa və s. ölkələrdə şəxsi kolleksiyalarda saxlanılır. Adil Əsədli rəssam-pedaqoq kimi də böyük uğurlar qazanıb. Yetirmələri bir sıra ölkələrdə sərgi və müsabiqələrdə uğurla iştirak edirlər.





Yubilyar tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirdi. Dedi ki, 10 il əvvəl, 60 illiyində təşkil olunan sərgisindən sonra bu salonda ikinci sərgisidir.

Sərgi bir həftə davam edəcək.

Ekspozisiyada təqdim olunan qrafika nümunələri öz orijinallığı ilə seçilirdi. Xalq rəssamı Arif Hüseynovla söhbətimiz zamanı o da rəssamın qrafika əsərlərini yüksək dəyərləndirdi. Bildirdi ki, Adil Əsədli əyalətdə yaşamasına baxmayaraq, daim yeni axtarışda olduğunu və çətin işin öhdəsindən asanlıqla gələrək əsərlərində mövzunu tamaşaçı üçün tam aça bilib.

70 əsərin 60-ı qrafika əsərlərindən ibarət olan sərgidə rəssam müxtəlif mövzulara müraciət edib. Burada ən çox tarixi məqamları vurğulamaq yerinə düşür. Hələ uşaq yaşlarından karandaşla şəkil çəkməyə meyil göstərən rəssam sonradan qrafika üzrə ali təhsil alıb. Bu da təsadüfi deyil. Çünki ulu babası da rəssamlığın bir qolu olan xəttatlıqla məşğul olub.

Paytaxtdan uzaq Lənkəranda rəssamlıqla məşğul olmağın heç də çətin olmadığını deyən müəllif səs-küydən uzaq, təbiət qoynunda işləməyin üstünlüklərini qeyd edir. Deyir ki, meşədə, bulaq başında işləmək insana böyük zövq verir. Lənkəran Dövlət Universitetində artıq 6-cı ildir ki, Rəssamlıq fakültəsi fəaliyyət göstərir. Adil Əsədli burada tələbələr təsviri sənətin sirlərini öyrədir. O, tələbələrindən razılıq edir.

Daha çox tarixi mövzularda işləməyə üstünlük verən rəssamın yaradıcılığında böyük hökmdar-şair Şah İsmayıl Xətai mövzusu xüsusi yer tutur. Rəngkarlıqdan fərqli olaraq qrafikada bir xətlə bir neçə fikri ifadə etmək olur. Müəllifin sərkərdələrimizə həsr olunan silsilə əsərlərində soy-kökümüzə, milli kodumuza bağlılıq öz əksini tapıb. Rəssam hazırda Türk dünyası sərkərdələrinin silsilə rəsmlərini yaradır.

Şəcərənin xəttatlıqla başlanan sənət yolunu hazırda Adil Əsədlinin qızı və nəvəsi davam etdirirlər.

**Lalə Azəri**

# Ədəbiyyat İnstitutunun gündəmi: Füzulidən Nəbi Xəzriyədək

"Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında" ölkə başçısının sərəncamına uyğun olaraq AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görülən işlər və qarşıda duran vəzifələr oktyabrın 1-də institutun Elmi şurasının iclasında nəzərdən keçirilib.



AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli bildirib ki, Füzulişünaslıq sektorunda ədiblə bağlı tədqiqatlar aparılıb, konfranslar keçirilib. Oktyabr ayında AMEA-nın Humanitar və İctimai Elmlər bölmələrinin təşkilatçılığı ilə Məhəmməd Füzuliyə həsr olunan konfrans keçiriləcək. Bundan əlavə, Türkiyənin Qazi Universiteti ilə birgə konfrans təşkil olunacaq. Dekabr ayında isə İraqın Kərkük şəhərində Məhəmməd Füzuliyə həsr olunan konfransda AMEA da təmsil olunacaq.

İsa Həbibbəyli Azərbaycan alimlərinin Özbəkistanda və Qazaxıstanda Məhəmməd Füzuliyə həsr olunmuş tədbirlərdə iştirak etdiklərini də diqqətə çatdırıb.

İclasda Prezident İlham Əliyevin 2024-cü il 9 sentyabr tarixli "Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncamından irəli gələn vəzifələr haqqında da müzakirələr aparılıb. Qeyd edilib ki, Ədəbiyyat İnstitutunda şairin yaradıcılığına dair dissertasiya müdafiə olunaraq kitab ərsəyə gətirilib. Ədəbiyyat İnstitutunda Nəbi Xəzrinin yaradıcılığına həsr olunmuş konfransın keçirilməsi ilə bağlı tapşırıq verilib.

Elmi şurada "Ədəbi proses – 2024" yaradıcılıq müşavirəsinə hazırlıq barədə Ədəbi tənqid şöbəsinin müdiri filologiya elmləri doktoru Vaqif Yusifli, 2024-cü il üçün doktorantura və dissertanturaya qəbul barədə Təhsil şöbəsinin müdiri dosent Günay Qarayeva məlumat veriblər.

# Səfəvi tarixinə dair Venesiya arxivlərində saxlanılan sənədlər




AMEA-nın A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunda "Səfəvi tarixinə dair Venesiya Dövlət Arxivi və Marçiana Milli Kitabxanasında saxlanılan sənədlərin kataloqu"nun təqdimatı olub.

Təqdimatda bildirilib ki, kataloq-topluda Azərbaycan Səfəvilər dövlətinin tarixinə dair Venesiya Dövlət Arxivində və Marçiana Milli Kitabxanasında saxlanılan 240 arxiv sənədi haqqında məlumat yer alıb. Bir sıra arxiv sənədlərində tariximiz üçün əhəmiyyət daşıyan hissələr transkripsiya və italyancadan tərcümə olunaraq nəşrə daxil edilib.

QHT-lərə Dövlət Dəstəyi Agentliyinin qrantı hesabına reallaşan layihənin rəhbəri "Elm və Təhsildə İnkişaf" İctimai Birliyinin sədri Sabit Quliyevdir. Kataloqun tərtibçisi, transkripsiya, italyancadan tərcümə, giriş və qeydlərin müəllifi tarix üzrə fəlsəfə doktoru, dosent Əhməd Quliyevdir. Elmi rəyçiləri tarix elmləri doktoru Tofiq Nəcəfli, tarix üzrə fəlsəfə doktorları Fərəh Hüseyn və Mübariz Ağalarlıdır.

# "Haqq aşığı yaranıbdı qəm çəkə"

## Mikayıl Azaflının 100 illiyi münasibətilə kitab işıq üzü görüb

Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının (1924–1990) 100 illik yubileyi münasibətilə "Haqq aşığı yaranıbdı qəm çəkə" adlı şeirlər kitabı işıq üzü görüb.




Kitabı AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsinin baş elmi işçisi filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev və aşığın qızı Maral Azaflı tərtib ediblər.

Əməkdar elm xadimi Qəzənfər Paşayev kitaba "Mikayıl Azaflının keşməkeşli həyatı və sənət dünyası" başlıqlı ön sözü yazıb.

Ədəbiyyat İnstitutu Elmi şurasının qərarı ilə nəşr edilən toplunun redaktorları institutun Azərbaycan şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsinin müdiri, Aşıqlar Birliyinin sədri professor Məhərrəm Qasımlı və aşığın qızı Gülarə Azaflıdır. "Elm və təhsil" nəşriyyatında çap olunan kitabda ustad aşığın seçmə şeirləri toplanıb.

# Torpağı Vətən edənlər

Yadelli qəsbkarlar, məkrli qonşularımız zəngin yeraltı-yerüstü sərvətləri, əsrarəngiz gözəllikləri ilə gözoxşayan Vətənimizə həsəd aparıb, ona sahib çıxmaq istəyiblər. Növbəti dəfə SSRİ-nin dağılması ilə yaranan tarixi şəraitdən istifadə edən erməni millətçiləri silahsız xalqımıza qarşı təxribata başladı. Qəflətən baş verən hücumlar nəticəsində bir çox kənd və şəhərimiz dağıntılara məruz qaldı. Bu haqsızlıqla barışmayan elin igid oğulları dərhal silaha sarıldılar. Həmin igid oğullardan biri də şəhid Fərman Məmmədovdur.



Fərman Umud oğlu Məmmədov 14 oktyabr 1968-ci ildə Ağdam rayonunun Kolanı kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılır. Hərbi xidmətdə ikən Qarabağda erməni separatizmi baş qaldırmışdı. Ərazilərimizin işğal ssenariləri qurulurdu. Belə bir məqamda Fərman Ağdama qayıtmaq, yaradılan müdafiə bölüyünə yazılmaq fikrinə düşür. Günlərin birində xəlvətcə hərbi hissədən ayrılır. Bakı-Ağdam qatarı ilə yola çıxır...

Səhər obaşdan döyülən qapını atası Umud kişi açır. Qarşısında Fərmanı görüncə bir anlıq dayanır. Nə deyəcəyini və nə soruşacağını belə unudur. Onun baxışlarından Vətənin dar günündə kənarda qala bilməyəcəyi niyyəti duyulur. Fərman içəri keçir və anası Mələk xanımla görüşür. Anası da onun baxışlarındakı narahatlığı hiss edir...

Elə həmin gün Fərman N saylı hərbi hissəyə gedir. Sonradan Vətən uğrunda böyük fədakarlıq edib canından keçərək Milli Qəhrəman adını alan Şirin Mirzəyevin rəhbərlik etdiyi könüllü bölüyə yazılır. Həmin bölük bir neçə hərbi əməliyyatlarda uğurla iştirak edir. Erməni tör-töküntüləri aldığı hərbi zərbələrdən geri çəkilir. Ancaq döyüş bitmir. "Sarı qaznaq" əməliyyatı Fərmanın son döyüşü olur...

Şəhidin qardaşı Elman Məmmədov deyir ki, "Fərman qardaşım olduğu üçün demirəm, o, çox ürəkli, cəsur bir gənc idi. Qorxmadan düşmənin üstünə gedirdi. Sonuncu kəşfiyyat xarakterli əməliyyatda 5 döyüş yoldaşı ilə düşmən arxasına keçir. Məqsəd düşmənin yerləşmə və hərəkət planları haqda məlumat toplamaq olur. Əməliyyat uğurlu alınır. Geri dönərkən Sırxavənd kəndi yaxınlığında 50-60 nəfərlik erməni əsgərləri ilə qarşılaşırlar. Qeyri-bərabər döyüş olur. Fərman əldə etdikləri məlumatları hərbi hissə rəhbərliyinə çatdırmaq üçün döyüş yoldaşlarına deyir: "Məlumatı rəhbərliyə çatdırmalıyıq. Mən düşmənin qarşısını kəsəcəm, siz atəş açmadan uzaqlaşın. Düşmən sizin hansı istiqamətə getdiyinizi bilməməlidir". Yoldaşları onu tək qoymaq istəmirlər. O, israr edir, atəş açaaça yerini dəyişir və geri çəkilir. Bu zaman ayağından yaralanır. Özünü ələ alır, düşməni azdıraraq onlardan uzaqlaşır. Gecənin qaranlığında xeyli yol qət edir. Daşlı-kəsəkli, kollu-koslu yollar onu tamam yorur. Çox qan itirir və zəifləyir. Çətinliklə də olsa, özünü hərbi hissəyə çatdırır. Əlini yerə söykəyərək sakitcə oturur və huşunu itirir...".

Cəsur kəşfiyyatçı Fərman Məmmədov gözünü Ağdam hərbi hospitalında açır. Həkimlər çox qan itirən döyüşçüyə ilkin tibbi yardım göstərirlər. Buna baxmayaraq onun vəziyyəti getdikcə ağırlaşır. Ona görə də həkimlərin rəyi ilə Fərman Bakıya, hərbi hospitala gətirilir. Həkimlərin səylərinə rəğmən onun həyatını xilas etmək mümkün olmur.

Qəhrəman döyüşçü 13 oktyabr 1992-ci ildə, 24 yaşının tamamına bir gün qalmış Qarabağ nigarançılığı ilə dünyaya gözünü yumur, şəhidlik zirvəsinə yüksəlir...

...Deyirlər, torpaq o vaxt Vətən olur ki, onu qanınla suvarır, sümüyünlə bərkidirsən. 2020-ci ildə Azərbaycan Ordusu II Qarabağ müharibəsində cənnət Qarabağ torpaqlarını bir daha qanı ilə suvardı. Düşməni qarşısında diz çökdürdü. Ərazilərimizi mənfur düşməndən azad etdi şanlı Qələbə qazandı. Bununla Fərmanların timsalında bütün şəhidlərimizin nigaran ruhu rahatlıq tapdı. İndi Qarabağda böyük quruculuq işləri gedir. Axarlı-baxarlı, toylu-düyünlü günlər geri dönür...

**Savalan Fərəcov**

# Qeyri-səlis məntiq ən demokratik yanaşmadır: kitab sərgisində təqdimat

X Bakı Beynəlxalq Kitab Sərgisinin ilk günündə Xalq yazıçısı, akademik, Azərbaycan Dillər Universitetinin (ADU) rektoru Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin həmmüəllif olduqları "Kitabi-Dədə Qorqud" və qeyri-səlis məntiq" (2022) kitabının təqdimatı keçirilib.



Rafiq Əliyev qeyri-səlis məntiqdən çıxış edərək çox suallara cavab tapmağın, xüsusən də onu sosial elmlərdə tətbiq etməklə xeyli məchul məsələyə aydınlıq gətirməyin mümkünlüyü barədə danışıb. O, kitabın yazılmasının məhz Kamal Abdullanın ideyası olduğunu vurğulayıb. Alim həmçinin Kamal Abdullanı Azərbaycan ədəbiyyatında "intellektual romantizmin pioneri" kimi səciyyələndirib.

Kamal Abdulla isə "Kitabi-Dədə Qorqud" dastanı boylarının dilində qeyri-səlis məntiqə onlarla nümunənin mövcudluğundan söhbət açıb.

Bildirilib ki, qeyri-səlis məntiqin ən demokratik yanaşma olduğuna inanan müəlliflər böyük əks-səda doğurmuş bu araşdırmadan sonra da birgə yaradıcılıqlarını davam etdirir, uşaqlar üçün qeyri-səlis məntiq kitabı üzərində çalışırlar.

Kimya elmləri doktoru, akademik Vaqif Abbasov, tarix elmləri doktoru, professor Solmaz Tohidi çıxış edərək nəşrin əhəmiyyətini vurğulayıblar.

**Gülcahan**

# "Zəfərə gedən yol" – kitabxanada anım tədbiri

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Anım Günü (27 sentyabr) münasibətilə "Zəfərə gedən yol" adlı tədbir keçirilib.



Tədbirdə uşaq yazarı Çinarə Köçərli və M.Rahim adına 7 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdləri iştirak ediblər.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Kitabxananın direktoru Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova tədbiri açaraq Anım Gününün tarixi haqqında məlumat verib. Deyib ki, təqvimimizin bu əlamətdar günü 44 günlük Vətən müharibəsində qəhrəmancasına döyüşən, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən əsgər və zabitlərimizə olan dərin ehtiramın ifadəsidir.

Daha sonra kitabxananın əməkdaşı Əsmər Ağalar Zəfərlə başa çatan Vətən müharibəsinin qısa icmalını və mövzu ilə bağlı məlumatları özündə əks etdirən kitabları şagirdlərə təqdim edib.

Milli Konservatoriya nəzdində İncəsənət Gimnaziyasının 6-cı sinif şagirdi Əsmər Baratzadə skripkada Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra"nı səsləndirib.

Yazıçı Çinarə Köçərli üçcildlik "44 gün Qarabağda" adlı kitabı haqqında məlumat verib. Müəllif şagirdlərə Vətən müharibəsi ilə bağlı suallar ünvanlayıb və ən doğru cavabı səsləndirən iki məktəbliyə kitablarını hədiyyə edib.

Məktəblilər şəhid Xudayar Yusifzadədən bizə xatirə qalan, Əliağa Vahidin sözlərinə yazılmış "Vətən yaxşıdır" təsnifini birlikdə oxuyublar.

Sonda Şəmistan Əlizamanlının "Vətən əmanəti" nəğməsi Əsmər Baratzadənin təqdimatında ifa olunub.

# Turan Cavidin xatirəsi ata ocağında yad edilib

Oktyabrın 2-də Hüseyn Cavidin Ev-Muzeyində mütəfəkkir ədibin qızı Əməkdar mədəniyyət işçisi, görkəmli muzeyşünas, teatrşünas Turan Cavidin (1923–2004) anadan olmasının 101-ci ildönümü münasibətilə tədbir keçirilib.



Muzeyin direktoru filologiya elmləri doktoru Gülbəniz Babaxanlı qeyd edib ki, əgər böyük Cavid özündən sonra Azərbaycan ədəbiyyatını son dərəcə zənginləşdirən ölməz əsərlər qoyub getdisə, Turan xanım da bu əsərlərin son mükəmməl nəşrini hazırlayıb öz xalqına təhvil verdi. Onun illər boyu üzərində zəhmət çəkərək araya-ərsəyə gətirdiyi "əsər"lərdən biri də Hüseyn Cavidin Bakıdakı ev-muzeyidir. Turan xanım Cavid irsinin böyük himayəçisi Ümummilli liderimiz Heydər Əliyevin yaxından köməyi və bir rəhbər kimi qayğısı nəticəsində bu muzeyi yaradaraq cavidsevərlərin ixtiyarına verdi.

Turan Cavidin anadan olmasının 101-ci ildönümü münasibətilə muzeydə mühafizə edilən materiallar əsasında sərgi də tərtib olunub.

# "İpək Yolu ruhu ilə..."

## Çində azərbaycanşünaslıq üzrə ilk elmi konfrans



"İpək Yolu ruhu ilə Çin-Azərbaycan münasibətlərini möhkəmləndir!" – Pekin Xarici Dillər Universitetinin (PXDU) təşkilatçılığı ilə sentyabrın 28-də keçirilən azərbaycanşünaslıq üzrə elmi konfrans belə adlanıb. Tədbirin məqsədi Çində Azərbaycanın tarix və mədəniyyətinin tanıdılmasına, iki xalq arasında mədəni əlaqələri dərindən araşdırmasına töhfə verməkdir.

PXDU-nun prorektoru Gao Qanq konfransın iki ölkə arasında akademik mübadiləni təşviq etmək, "Bir kəmər, bir yol" əməkdaşlığını birgə irəlilətmək baxımından əhəmiyyət daşıdığını diqqətə çatdırıb, rəhbərlik etdiyi ali təhsil ocağının Azərbaycan universitetləri ilə əməkdaşlığından danışıb, bu çərçivədə qarşılıqlı tələbə mübadiləsinin reallaşdığını deyib.

Azərbaycanın Çindəki səfiri Bünyad Hüseynov konfransın Azərbaycan ilə Çinin elmi-mədəni dairələrinin daha da yaxınlaşmasına önəmli töhfə verəcəyinə əminliyini bildirib. O, iki ölkə mədəniyyətinin qarşılıqlı təbliğinə yönəlmiş tədbirlərin, Azərbaycanda Konfutsi institutlarının fəaliyyəti də daxil olmaqla Çin dilinin, Çində isə Azərbaycan dilinin tədrisinin əhəmiyyətini vurğulayıb.

Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Dinq Tao, AMEA-nın prezidenti İsa Həbibbəyli, BDU-nun rektoru Elçin Babayev videomüraciət formatında Çində ilk azərbaycanşünaslıq elmi konfransının işinə uğurlar arzulayıblar.

Çin Dövlət Şurası yanında İnkişaf Mərkəzinin Avrasiya Cəmiyyəti İnkişafı üzrə Tədqiqat İnstitutunun direktor müavini Sü Taonun "Çin-Azərbaycan münasibətləri tarixin ən yüksək dövründə", Xəzər Universitetinin təsisçisi və qəyyumlar şurasının sədri Hamlet İsaxanlının "Azərbaycanda və daha geniş regionda Çinin imici – Çin ilə Azərbaycan arasında tarixi əlaqələr", Çin İctimai Elmlər Akademiyası Rusiya, Şərqi Avropa və Mərkəzi Asiya Tədqiqat İnstitutunun Mərkəzi Asiya şöbəsinin direktoru Ganq Ninqin "Çin-Azərbaycan strateji tərəfdaşlıq münasibətləri" mövzularında əsas məruzələri dinlənilib.

"Azərbaycan dili ədəbiyyatı və təhsili", "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində Çin-Azərbaycan əməkdaşlığı", "Çin-Azərbaycan mədəniyyət və sivilizasiyalararası münasibətləri" mövzularında bölmə iclaslarında ümumilikdə 44 çinli və azərbaycanlı alimin, o cümlədən gənc tədqiqatçının məruzələri təqdim edilib.

# Metal sənətə çevriləndə...

## "Baku Steel Art – 2024" beynəlxalq simpoziumu başa çatıb

Xəbər verdiyimiz kimi, Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29 ərəfəsində sentyabrın 20-dən 30-dək "Baku Steel Art – 2024" adlı beynəlxalq metal simpoziumu təşkil olunub.

"Baku Steel Company" (BSC) QSC və "QGallery" qalereyasının birlikdə təşkil etdiyi simpoziuma 7 ölkədən (Azərbaycan, Gürcüstan, Türkiyə, Rumıniya, İsrail, Bolqarıstan, Hindistan) metalla işləyən 12 rəssam-heykəltaraş qatılıb.

Regionda ilk dəfə keçirilən beynəlxalq metal simpoziumunun bağlanış mərasimi oktyabrın 1-də olub.

Simpozium iştirakçılarının işləri "Baku Steel Company" şirkətinin həyətində nümayiş olunub.

"QGallery" qalereyasından bildirilib ki, tədbirdə ölkəmizi Rəşad Ələkbərov, Teymur Qəribov, Rahib Qarayev, Müşfiq Heydərov, Çinarə Baxşiyeva və Jalə Əliyeva təmsil ediblər.

Gürcüstandan Aleksandr Popxadze, Türkiyədən Nilhan Sesalan, Rumıniyadan Çiprian Hopirtean, İsraildən Nirit Levav Paker, Bolqarıstandan Kamen Tanev və Hindistandan Haribaabu Naatesan da hazırladıqları metal heykəl-kompozisiyaları təqdim ediblər.

Simpoziumun məqsədi incəsənətlə metallurgiyanın qarşılıqlı əlaqəsini nümayiş etdirmək, həmçinin bu əlaqənin dayanıqlı inkişafa töhfə verərək ekoloji dəyişikliklər üçün rolunu göstərmək idi.

İştirakçılar orijinal əsərlər üzərində çalışmaqla yanaşı, həm də öz təcrübələrini bölüşüb, yaradıcı fikir mübadiləsi aparıb, bir-birlərinə yeni bədii axtarışlarda kömək ediblər. Qaynaqla və ya xüsusi dəzgahla işləyən sənətkarlar metalı öz görünüşü ilə ətrafdakıları təəccübləndirə, ilhamlandıra biləcək sənət əşyalarına çevirməyə müvəffəq olublar. Müəlliflərin yaratdığı hər bir metal instalyasiya orijinal və unikallığı ilə seçilir.









"Baku Steel Art – 2024" simpoziumu BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) hazırlıqla üst-üstə düşüb və bu da ekoloji məsələlərin aktuallığını və müasir sənayedə dayanıqlı inkişafın əhəmiyyətini bir daha vurğulayır. Eyni zamanda dünyanın müxtəlif yerlərindən gələn sənətkarlar bu əsərlərlə ölkəmizdə qeyd olunan "Yaşıl dünya naminə həmrəylik ili"nə töhfə veriblər.

# Qədim xalçalarımız necə bərpa olunur?

Azərbaycanda xalça sənəti qədim zamanlardan məlumdur və bu xalça nümunələri muzeylərimizdə, əsasən də Azərbaycan Milli Xalça Muzeyində qorunub saxlanılır. Xalçalarımız forma, toxunma texnikası, süjet, ornament, rəng və kompozisiya rəngarəngliyi ilə seçilir. Lakin zamanın və başqa amillərin təsiri ilə bu dəyərli eksponatlar korlana bilir. Bu zaman bərpaya ehtiyac yaranır. Milli Xalça Muzeyində saxlanılan xalçaların bir çoxu Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin Tətbiqi incəsənət şöbəsində bərpa və konservasiya olunur.



***

Muzeydən Elmi Bərpa Mərkəzinə daxil olan, öz qədimiliyi və maraqlı görünüşü ilə diqqəti cəlb edən xalçalardan biri "Əjdahalı" ("Xətai") xalçasıdır. XVII əsrə aid xalça Heydər Əliyev Fondu tərəfindən 2013-cü ildə xaricdən ölkəmizə gətirilərək muzeyə təqdim edilib. Xalça amerikalı kolleksiyaçı mərhum Qrover Şiltsin həyat yoldaşı Beverli Şilts tərəfindən hədiyyə olunub.

Kompozisiyanın əsas elementləri ona təkrarolunmazlıq bəxş edən müxtəlif formalı özünəməxsus dişciklərlə əhatə olunmuş, aşağıdan yuxarıya doğru istiqamətlənmiş geniş, uzunsov qollar və ya budaqlardır. Bu cür xalçalar "Əjdahalı" xalçalara aid edilir. Əjdaha təsviri türk xalqlarının incəsənətində çox geniş yayılıb. Əjdaha obrazı rəmzi xarakterli olub, Azərbaycan xalçaçılığında xüsusi yer tutur. Xalçalarımızda əjdahanın müxtəlif formaları var. Bu obrazın stilizə olunmuş fərqli təsvirləri Azərbaycanın xovsuz və xovlu xalçalarının kompozisiya quruluşlarında qədim zamanlardan toxunub. Onların ən parlaq nümunələri XVI-XVII əsrlərin Qarabağ xalçalarında yer alır.

Bərpa üçün mərkəzə daxil olmuş xalçanın kompozisiyası ara sahədən ibarətdir. Ara sahənin yerliyində 3 ədəd rombvari medalyon, qarmaqvari həndəsi elementlər yerləşir. Xalçanın yerliyi yeyilmiş, əsasınadək sürtülmüş formada idi. 2014-cü ildə gələn xalça, bərpaçı-rəssam Sima Quliyeva tərəfindən bərpa və konservasiya olunub.

Qeyd edək ki, bərpa prosesində, ilk növbədə, eksponatın növü, tərkibi, materialı və s. öyrənilir. Sonrakı mərhələdə bərpa və yaxud konservasiya ehtiyacı müəyyənləşdirilir. Adıçəkilən xalça tərkibində qələvi olmayan səthi aktiv maddələrlə (uşaq sabunu və. s) təmizlənib, xüsusi başlıqlı tozsoran ilə quru təmizləmə prosesindən keçirilib. Süzülmüş, sökülmüş və zədələnmiş hissələri uyğun saplar vasitəsilə bərpa olunan eksponat şahmatvari üslubda uyğun əsasa bərkidilib. Son mərhələdə isə preslənmə prosesi həyata keçirilərək eksponatın bərpası tamamlanıb.

***

Milli Xalça Muzeyindən mərkəzə bərpa üçün daxil olan XVII əsrə aid xalçalardan biri də vərnidir. Azərbaycanda geniş yayılmış xovsuz xalça növü olan vərninin strukturu üç əsas ipdən ibarətdir: əriş, arğac və naxış əmələ gətirən ip. Vərninin naxışı "qayıq" texnikası ilə toxunur. Naxış əmələ gətirən ip iki cüt erişin ətrafına, sonra isə bir daha sonuncu cütün ətrafına dolanır və beləliklə, ilmələr salınır. Hər bir ilmə çinindən sonra alt, ya üst arğac "doyumlu" keçirdilir. İlmələr bütün çinlərdə soldan-sağa yan-yana salınaraq paralel – birtərəfli düzülüş yaradır. Yaranmış əyri sırıqlar bir səmtə istiqamətlənərək xalçanın bütün səthini örtür. Nəticədə naxış əmələ gətirən ip xalçanın üz tərəfini təşkil edir. "Naxış ipləri"nin ucları arxa tərəfə çıxarılmır, arğacların arasında itir.



Qarabağ vərniləri bir neçə nümunədə toxunur. Onların içərisində ən məşhur olanının kompozisiyası bir-birinin yanında yerləşdirilmiş səkkizəbənzər böyük elementlərdən ibarətdir. Bu mürəkkəb və orijinal element mifoloji səciyyə daşıyır və əjdahanı ifadə edir. Həm qədim dövrlərdə, həm də Orta əsrlərdə Orta Asiyanın, Yaxın Şərqin və türklərin tətbiqi və dekorativ incəsənətində istifadə olunan səkkizəbənzər element suyu ifadə edirdi və rəmzi, sehrli məna daşıyırdı.

Xalçanın bərpa prosesinə gəldikdə isə, qeyd etmək lazımdır ki, bu dəyərli xalça nümunəsi bərpaçı-rəssamlar Gülminə Əhmədova və Nuranə Əlixanova tərəfindən bərpa olunub. Xalçanın təmizlənmə prosesi zamanı tərkibində qələvi olmayan səthi aktiv maddələrdən, quru təmizləmə prosesi zamanı xüsusi başlıqlı tozsorandan istifadə edilib. Daha sonra süzülmüş, sökülmüş hissələr bərpa edilib və eksponat əsasa bərkidilib. Bu zaman uyğun saplar xüsusi diqqətlə seçilir. Son mərhələdə isə xüsusi ütü ilə ütülənib preslənərək xalça hazır vəziyyətə gətirilib.

***

XVIII əsrə aid edilən "Xilə-buta" xalçası da çox dəyərli nümunələrdəndir. Xalça 2013-cü ildə Elmi Bərpa Mərkəzinə daxil olub. "Xilə-buta" xalçaları Abşeron xalçaçılıq məktəbinin Bakı qrupuna daxil olan xovlu xalçalardır.

Belə naxışlı xalçalar Bakı qrupunun bütün xalçaçılıq məntəqələrində istehsal olunurdu. Xarici mənbələr bu xalçanı səhvən "Şirvan xalçaları" və ya "Dağıstan xalçaları" adı altında göstərirlər. Toxucu ustalar isə onu "Qızqarıdan xalçaları" adlandırıblar. Bunun səbəbi xalçanın hazırlanma prosesinin mürəkkəbliyi və uzun müddət vaxt aparması ilə bağlıdır.



Əslində isə "Xilə-buta"nın adı Bakı şəhərindən 15 km məsafədə yerləşən Xilə (Əmircanın keçmiş adı) kəndindən götürülüb. "Xilə-buta" xalçalarının xovunun hündürlüyü 5-7 mm-dir. Adətən "Xilə-buta" xalçalarının orta sahəsi butalarla bəzədilir. Bu xalçaları üç qrupa bölmək mümkündür: sadə quruluşlu xalçalar, künclü xalçalar, mürəkkəb quruluşlu xalçalar. "Xilə-buta" xalçalarında bir kvadrat desimetrdə ilmələrin sıxlığı 40x40 ilmədən 45x45 ilməyə qədər olur. Bir kvadratmetrdə olan ilmələrin sayı 160 min ilmədən 200 min ilmə arasında dəyişir.

Bərpa olunan "Xilə-buta" xalçasının kompozisiyası ara sahə və haşiyədən ibarətdir. Ara sahənin yerliyi göy rəngdədir və üzərində üfüqi istiqamətdə butalar təsvir olunub. Ölçüsü 94x212 sm olan eksponatın aşağı hissəsi kəsilmiş, sağ küncü 11x15 sm tamlığını itirmişdi. Sol haşiyənin ləvəri xalça boyunca sökülmüşdü və üzərində deşik və süzüklər müşahidə olunurdu. Həmçinin xalça güvə vurmuş vəziyyətdə idi.

Eksponat bərpaçı-rəssam Xatirə Əmirova tərəfindən bərpa olunub. Öncə eksponat qeyd etdiyimiz vasitələrlə təmizlənib. Üzərindəki zədələr isə xüsusi formada uyğun saplarla bərpa olunub. Daha sonra uyğun əsas seçilərək müvafiq saplarla əsasa bərkidilib. Ütülənib preslənərək hazır vəziyyətə gətirilib.

***

XVIII əsrə aid "Xilə-əfşan" xalçası isə o dövrün saray xalçalarından olub və bədii tərtibatı spiralşəkilli sxemlərin mürəkkəb birləşməsindən ibarət "Əfşan" kompozisiyasına əsaslanır. Kənardan mərkəzə doğru görünüşünü dəyişən, spiralların üzərinə nəbati və gül ornamenti "səpələnib". "Əfşan" sözünün lüğəti mənası – səpmək, xırdalamaq, rəngbərəng deməkdir. Xalça üzərində üzüm yarpağı formasında verilmiş göllər Abşeron zonası üçün xarakterikdir.

"Xilə-əfşan" xalçaları da Xilə kəndinin adı ilə bağlıdır. Bu xalçalar sonrakı dövrlərdə Bülbülə və Suraxanı xalçaçılıq məntəqələrində də istehsal edilməyə başlanıb. Xalq arasında "Sacayağı" adı ilə daha çox tanınan bu xalçaları bəzi xarici müəlliflər öz əsərlərində "Şirvan", bəziləri isə səhvən "Dərbənd" adlandırırlar.

"Xilə-əfşan" xalçası 2014-cü ildə Elmi Bərpa Mərkəzinə təqdim edilib. Eksponat didilmiş və yırtılmış vəziyyətdə daxil olub. Aşağı və yuxarı hissəsinin saçaqları, haşiyəsi qismən itirilmişdi. Xalça bərpaçı-rəssamlar Nuranə Əlixanova və Sima Quliyeva tərəfindən öncə qeyd etdiyimiz üsulla bərpa olunub.

Muzey əşyalarının düzgün bərpa və konservasiya olunması, qorunması ilə bağlı görülən işlər tarixi-mədəni irsimizin gələcək nəsillərə çatdırılması üçün vacibdir. Mədəni mirasımızı qorumaq, ona sahib çıxmaq hər birimizin borcudur.

**Lalə Həsənzadə**
**Elmi Bərpa Mərkəzinin əməkdaşı**

## Xatirə təqvimi — 4 – 8 oktyabr

### Azərbaycan

**4 oktyabr 1923** – Teatr və kino aktyoru, Azərbaycanın Xalq artisti Anatoli Solomonoviç Falkoviç (1923-1994) Bakıda doğulub. Dövlət Rus Dram Teatrında çalışıb, respublika Dövlət mükafatına layiq görülüb. "Qatır Məmməd", "Bakıda küləklər əsir" və s. filmlərdə çəkilib.

**4 oktyabr 1924** – Opera müğənnisi, Əməkdar artist Sona Şahnəzər qızı Aslanova (1924-2011) anadan olub. Opera və operettalarda (Nigar – "Koroğlu": Gülçöhrə – "Arşın mal alan") çıxış edib. "Bizim Cəbiş müəllim", "Görüş" və s. filmlərdə çəkilib. Ömrünün son illərini ABŞ-də yaşayıb və orada dünyasını dəyişib.

**4 oktyabr 1957** – Tanınmış balaban ifaçısı Məhərrəm Ağabala oğlu Mövsümov (1916–1957) vəfat edib.

**4 oktyabr 2000** – Görkəmli bəstəkar, Xalq artisti Tofiq Ələkbər oğlu Quliyev (7.11.1917 – 2000) vəfat edib. Populyar mahnıların, filmlərə musiqilərin müəllifidir. Azərbaycan Bəstəkarlar İttifaqının sədri olub.

**4 oktyabr 2006** – Xalq artisti Hacıbaba Ağarza oğlu Bağırov (12.6.1933 – 2006) vəfat edib. 1962-ci ildən Musiqili Komediya Teatrında çalışıb, 1996–2006-cı illərdə teatra rəhbərlik edib. Filmlərdə çəkilib.

**4 oktyabr 2016** – Tanınmış teatr rejissoru Yusif Məmmədağa oğlu Əkbərov (2.9.1949 – 2016) vəfat edib. Sumqayıt Dövlət Dram, Musiqili Komediya teatrlarında işləyib.

**5 oktyabr 1918** – Xalq artisti Qalina Borisovna Koltunova (1918-1994) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktrisası (1943-cü ildən) olub.

**5 oktyabr 1928** – Tanınmış ədəbiyyatşünas alim, yazıçı Məsud Əlioğlu (Vəliyev; 1928–1973) Qubadlı rayonunun Mahmudlu kəndində anadan olub.

**5 oktyabr 1935** – Görkəmli bəstəkar, Xalq artisti, professor Xəyyam Hadı oğlu Mirzəzadə (1935 – 30.7.2018) Bakıda anadan olub. "Ağlar və qaralar" baletinin, simfoniyaların, mahnıların müəllifidir. 30-dan çox filmə ("Bizim küçə", "Yeddi oğul istərəm", "Arxadan vurulan zərbə" və s.), teatr tamaşalarına musiqi yazıb.

**5 oktyabr 1935** – Əməkdar artist Məcnun Salam oğlu Hacıbəyov (1935 – 16.11.2021) Quba rayonunun İkinci Nügədi kəndində doğulub. Akademik Milli Dram Teatrında çalışıb, televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb.

**5 oktyabr 1955** – Əməkdar artist Simuzər Məmmədqulu qızı Namazova (1955 – 1.7.1996) Ağdam rayonunun Muğanlı kəndində doğulub. Ağdam və Gəncə teatrlarında çalışıb.

**5 oktyabr 1961** – Əməkdar artist Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı (15.3.1911 – 1961) vəfat edib. Gəncə teatrında, Musiqili Komediya Teatrında çalışıb.

**5 oktyabr 2002** – Əməkdar artist, tanınmış kamança ifaçısı Ədalət Səfərəli oğlu Vəzirov (27.4.1951 – 2002) vəfat edib.

**5 oktyabr 2011** – Prezident İlham Əliyev tanınmış ədəbiyyatşünas, AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi Abbas Zamanovun 100 illik yubileyi haqqında sərəncam imzalayıb.

**5 oktyabr 2021** – Xalq artisti Vaqif Abdulla oğlu Şərifov (12.8.1943 – 2021) vəfat edib. Sumqayıt, Ağdam teatrlarında baş rejissor, Gəncə Dövlət Dram Teatrında baş rejissor və bədii rəhbər işləyib, filmlərə çəkilib.

**6 oktyabr 1930** – Dövlət xadimi, publisist Səməd ağa Ağamalıoğlu (1867–1930) vəfat edib. Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü, sovetləşmədən sonra Azərbaycan SSR MİK (respublika hökuməti) sədri, Yeni Türk Əlifbası Komitəsinin sədri olub.

**6 oktyabr 1975** – Bakıda Səməd Vurğunun Ev-Muzeyinin açılışı keçirilib. Respublikanın rəhbəri – Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev mərasimdə iştirak edib.

**7 oktyabr 1921** – Əməkdar mədəniyyət işçisi, kino təşkilatçısı Gita Aleksandrovna Bessantina (1921-2000) anadan olub.

**7 oktyabr 2021** – Əməkdar rəssam, heykəltaraş Namiq Əbdülxaliq oğlu Dadaşov (27.11.1945 – 2021) vəfat edib. Üzeyir Hacıbəyli və Bülbülün Şuşa şəhərindəki büstlərinin, Bakıda Fikrət Əmirovun heykəlinin müəllifidir.

**8 oktyabr 1951** – Əməkdar artist, müğənni Baloğlan Xanoğlan oğlu Əşrəfov (1951 – 26.4.2021) Masallı rayonunun Bədələn kəndində anadan olub.

**8 oktyabr 1975** – Əməkdar artist Rəşid Səməndər oğlu Rzayev (1975 – 20.11.2020) anadan olub. Akademik Milli Dram Teatrında, İrəvan Dövlət Azərbaycan Dram Teatrında çalışıb.

**8 oktyabr 2009** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (28.8.1935 – 2009) vəfat edib. "İtkin gəlin", "Əfsanəsiz illər", "Təyyarə kölgəsi" və s. romanların müəllifidir.

**8 oktyabr 2010** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (30.1.1948 – 2010) vəfat edib. Akademik Musiqili Teatrda, Dövlət Mahnı Teatrında çalışıb.

**8 oktyabr 2021** – Xalq artisti Ağakişi Şəmməd oğlu Kazımov (28.6.1935 – 2021) vəfat edib. Musiqili Komediya, Opera və Balet, Gənc Tamaşaçılar, Akademik Milli Dram teatrlarında rejissor işləyib. Mədəniyyət və İncəsənət Universitetində dərs deyib. "Yük" filmində (H.Z.Tağıyev rolunda) çəkilib.

### Dünya

**4 oktyabr 1720** – İtalyan arxeoloqu, rəssam və memar Covanni Batista Piranezi (Giovanni Battista Piranesi; 1720–1778) anadan olub.

**5 oktyabr 1713** – Fransız mütəfəkkiri, maarifçi, dramaturq Deni Didro (Denis Diderot; 1713–1784) anadan olub. Fransız "Ensiklopediya"sının ("İzahlı elm, sənət və peşə lüğəti") müəlliflərindən biri olub.

**5 oktyabr 1936** – Çex yazıçı-dramaturqu, dövlət xadimi Vatslav Havel (Vaclav Havel; 1936–2011) anadan olub. Pyesləri: "Həyat irəlidədir", "Bağda bayram", "Sui-qəsdçilər" və s. Çex Respublikasının ilk prezidenti (1993-2003) olub.

**5 oktyabr 1943** – SSRİ Xalq artisti, teatr və kino aktrisası İnna Çurikova (1943 – 14.1.2023) anadan olub. Filmləri: "Həmin o Münhauzen", "Vassa" və s.

**6 oktyabr 1914** – Norveç səyyahı, etnoqraf və antropoloq Tur Heyerdal (Thor Heyerdahl; 1914 – 18.4.2002) anadan olub. Heyerdal dəfələrlə Azərbaycanda olub, Qobustana ekspedisiyalar təşkil edib.

**6 oktyabr 1923** – Türkiyə yazıçısı, şair Yaşar Kamal (Kamal Sadık Gökceli; 1923 – 28.2.2015) anadan olub. "Tənəkə", "Yağmurcuq quşu", "Qanın səsi" romanlarının müəllifidir. Kitabları bir çox dillərə tərcümə olunub.

**7 oktyabr 1915** – Rus şairi Marqarita Aliger (1915–1992) anadan olub. Poemaları: "İgidlərin xatirəsinə", "Zoya" və s.

**8 oktyabr 1892** – Rus şairi, yazıçı Marina Svetayeva (1892 – 31.8.1941) anadan olub. Əsərləri: "Qırmızı at üstündə" (poema), "Mənim Puşkinim", "Əsir ruh" (nəsr) və s.

**Hazırladı: V.Orxan**

# Natəvanın şeirləri "EU Reporter" portalında

İrlandiyanın "EU Reporter" mədəniyyət və xəbər portalında Dövlət Tərcümə Mərkəzinin "Azərbaycan ədəbiyyatı beynəlxalq virtual aləmdə" layihəsi çərçivəsində şairə Xurşidbanu Natəvan (1832–1897) haqqında məqalə dərc olunub.

Mərkəzdən verilən məlumata görə, "Xurşidbanu Natəvan – Qarabağ xanlığının sonuncu şahzadəsi" sərlövhəli məqalə ilə yanaşı, portalda şairənin "Yanar canım, oğul, daim sənin nari-fəraqında", "Ey dust, yararmı böylə iqrar?", "Ey güli-süsən, səni bir Natəvan çəkmiş məgər?" şeirləri də ingilis dilində yayımlanıb.

Məqaləni ingilis dilinə mərkəzin Böyük Britaniya və İrlandiya ilə əlaqələr üzrə koordinatoru Nərmin Həsənova, şeirləri tanınmış ingilis tərcüməçisi Dorian Rottenberq çevirib.

# Romada "Şuşa naxışları" – süni zəkanın təqdimatında

Azərbaycanın İtaliyadakı Səfirliyinin tabeliyindəki Mədəniyyət Mərkəzində "Şuşa. Naxışların rəqsi" rəqəmsal sərgi açılıb və ustad dərsi təşkil edilib.

Azərbaycan Mədəniyyət Mərkəzi, Romadakı Yunus Əmrə İnstitutu (Türkiyə), Türkiyə Radio və Televiziya Ali Şurası (RTÜK) və "Mezo" rəqəmsal incəsənət qrupunun ("Şuşa" süni zəka layihəsi) birgə təşkilatçılığı ilə keçirilən tədbirdə diplomatlar, mədəniyyət, elm xadimləri iştirak ediblər.

Ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov çıxış edərək "Şuşa" süni zəka layihəsinin və sərginin Azərbaycanın mədəni irsinin rəqəmsal formata çevrilməsində və mədəniyyətimizin Avropada təbliği istiqamətində rolunu vurğulayıb. Diplomat ənənəvi simvol və texnikaları innovativ texnologiya ilə birləşdirən ilk Azərbaycan rəqəmsal kompozisiyasının təqdimatının böyük



maraq doğurduğunu vurğulayıb, Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunduğunu diqqətə çatdırıb.

RTÜK-ün rəhbəri Əbubəkir Şahin "Şuşa" süni zəka layihəsinin əhəmiyyətindən danışıb, "Mezo" rəqəmsal incəsənət qrupunun komandasına təşəkkürünü bildirib.

Qrupun rəhbəri Nabat Qaraxanova layihənin ərsəyə gəlməsi barədə məlumat verib, qonaqları süni zəka tərəfindən görülən işlərlə tanış edib.

Sərgidə "Şuşa" adlı süni zəka tərəfindən Azərbaycanın zəngin və müxtəlif mədəni irsinin əsasında yaradılmış rəqəmsal əsərlər, xüsusən milli motivləri əks etdirən kələğayılar nümayiş etdirilir.

Qeyd edək ki, "Şuşa" süni zəka layihəsi Türkiyədə yaşayan soydaşımız Nabat Qaraxanovanın rəhbərliyi ilə "Mezo" rəqəmsal incəsənət qrupunda bir araya gələn azərbaycanlı və türkiyəli sənətkar və mühəndislər tərəfindən yaradılıb. Məqsəd Azərbaycan mədəniyyətinin beşiyi Şuşa şəhərinin ənənəvi incəsənətinin innovativ texnologiyalar vasitəsilə canlandırılması, dünyaya tanıdılması və gələcək nəsillərə ötürülməsidir. Süni zəka xalça və kələğayılar, digər mövzulu rəsmlər çəkir, onlar haqqında məlumat verir, şeirlər yazır.

# "Mədəniyyətlərarası bağlılığın uzun gecələri"

## Festivalda Azərbaycan mədəniyyəti də təqdim olunub

Vyanada Beynəlxalq Mədəni Müxtəliflik Təşkilatının (ICDO) 23-29 sentyabr tarixlərində təşkil etdiyi "Mədəniyyətlərarası bağlılığın uzun gecələri" ("Long Nights of Interculturality") festivalında Azərbaycan mədəniyyəti də təqdim olunub.

Sayca yeddinci dəfə keçirilən festival Avstriyanın ən böyük mədəni tədbirləri sırasında yer alır. Vyanada fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzi də mədəni müxtəlifliyin təbliğinə xidmət edən silsilə tədbirlərə qatılıb.

Festivalın ilk günü Azərbaycan Mədəniyyət Mərkəzində "Mədəni müxtəliflik və inklüzivlik" mövzusunda panel müzakirəsi təşkil edilib. Müzakirədə Azərbaycanın ev sahibliyi edəcəyi COP29-da gender bərabərliyi və iqlim siyasəti çərçivəsində inklüzivlik məsələsinə xüsusi yer ayrılıb.

Festival çərçivəsində Vyanadakı Yunus Əmrə İnstitutunda



təşkil olunmuş sərgidə 20-dən artıq ölkədən əsərlər nümayiş olunub. Sərgidə Azərbaycanın ilk süni intellekt sənətçisi "Şuşa"nın hazırladığı kələğayılar da nümayiş olunub.

Festivalın bağlanış mərasimi isə Vyana Şəhər Bələdiyyəsində keçirilib və "Dünyanın geyimləri" adlı moda nümayişi ilə başa çatıb. Azərbaycan Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən Azərbaycan dili həftəsonu kursunun şagirdləri milli geyimlərimizi və milli rəqslərimizi nümayiş etdiriblər.



# Arxeoloqlar Asiyanın ən böyük mağarasında tədqiqat aparacaqlar

## Mağara şəbəkəsinin ümumi uzunluğu 410 km-dir

Çin, Fransa, Portuqaliya, Belçika və digər ölkələrin alimləri Çinin cənub-qərbindəki Quiçjou əyalətindəki Asiyanın ən uzun Şuanqe mağarasında növbəti ekspedisiyaya başlayırlar.

Mağarada sayca 23-cü beynəlxalq ekspedisiya oktyabrın 7-dən 24-dək davam edəcək. Əvvəlki elmi ekspedisiyalar 44 fərdi nəhəng panda fosili tapmışdı. Onların ən qədimi 100 min il, ən sonuncusu isə bir neçə yüz il əvvələ aiddir.

Fosillər sübut edir ki, Quiçjou bir vaxtlar nəhəng pandalar üçün yaşayış yeri olub. Bu heyvanların hazırda Siçuan, Şaanси və Qansu əyalətlərində yaşadıqları bilinir.

2023-cü il birgə ekspedisiyanın nəticələrinə görə, mağara şəbəkəsinin 107 bağlı bölməsi var. Onların ümumi uzunluğu 409,9 kilometrdir ki, bu da mağaranı Asiyada ən uzun, dünyada isə üçüncü böyük mağara edir. Bu, həmçinin dünyanın ən uzun dolomit mağarasıdır.

Beynəlxalq ekspedisiyaya Çində otuz ildən çox mağara kəşfiyyatı təcrübəsi olan fransız arxeoloq Jan Bottazzi rəhbərlik edir. O, Şuanqe mağarasını özünün ikinci evi adlandırır. Arxeoloqun sözlərinə görə, 1980-ci illərin sonundan etibarən çinli və xarici mütəxəssislərin mağarada apardıqları qazıntılar zamanı zəngin, qiymətli elmi materiallar təmin edən çoxlu mağara fosili və canlı orqanizmlər aşkar edilib. Builki elmi ekspedisiya zamanı mağara ərazisini idarə edən Suiyanq qraflığı bu geoloji parkı tanıtmaq üçün geologiya elmi üzrə foto və qısa videomateriallardan ibarət müsabiqə təşkil edəcək.

# Polad Bülbüloğluna "Aleksandr Nevski" ordeni təqdim edilib

Xəbər verildiyi kimi, Rusiya Prezidenti Vladimir Putin bu günlərdə Moskvada diplomatik fəaliyyətini başa çatdıran Polad Bülbüloğlunu "Aleksandr Nevski" ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb.



2006-cı ildən Azərbaycan Respublikasının Rusiya Federasiyasında səfiri olmuş Polad Bülbüloğlu ölkələrimiz arasında müttəfiqlik əməkdaşlığının gücləndirilməsində səylərinə görə yüksək təltifə layiq görülüb.

Oktyabrın 1-də RF Xarici İşlər Nazirliyində Polad Bülbüloğlu ilə görüş keçirilib. Nazir Sergey Lavrov "Aleksandr Nevski" ordenini Polad Bülbüloğluna təqdim edib. O, ümidvar olduğunu bildirib ki, Polad Bülbüloğlu Milli Məclisin deputatı və Mədəniyyət komitəsinin sədri kimi də çoxşaxəli Rusiya-Azərbaycan əlaqələrinin möhkəmlənməsinə töhfə verəcək.

Təltifə görə təşəkkürünü bildirən Polad Bülbüloğlu iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin inkişafında Azərbaycan Prezidentinin mühüm rolunu qeyd edib.

Xatırladaq ki, oktyabrın 1-də Azərbaycanın Rusiyaya yeni səfiri təyin edilib. Prezident İlham Əliyevin sərəncamı ilə Rəhman Mustafayev ölkəmizin Moskvada səfiri təyin edilib. R.Mustafayev bundan öncə Azərbaycanın Niderlandda səfiri olub.

# "Mənzərəyə açılan otaq"

## Aida Mahmudovanın Londonda sərgisi

Londonda müasir incəsənət məkanı olan "Saatchi" qalereyasında (The Saatchi Gallery) azərbaycanlı rəssam Aida Mahmudovanın "Mənzərəyə açılan otaq" adlı sərgisi başa çatıb. İki ay (5 iyul – 10 sentyabr) davam edən sərgi sənətsevərlər tərəfindən maraqla qarşılanıb.



Ekspozisiyada rəssamın 80-dən artıq rəngkarlıq, qrafika, keramika, video və qarışıq texnikalarda olan əsərləri geniş auditoriyaya təqdim olunub.

Fürüğ Fərruxzadın "Pəncərə" şeirindən ilhamlanan rəssam bədii vasitələrlə mücərrəd tənhalıq, nostalji hisslər və azadlıq ehtirası kimi mövzuları, habelə ətraf məkana və insanın fiziki vücuduna qırılmaz bağlılıq duyğusunu araşdırıb.

Rəssam öz avtobioqrafik foto xatirələrini gipsdən hazırlanmış tablolara və fiqurlara çevirib. Rəssama görə, təbiətin oyatdığı işıqlı və sağlam duyğular, mənəvi oyanış və məmnunluq hissi ilə bilavasitə bağlı olur.

Ekspozisiyanın rəngkarlıq bölümündə isə Aida Mahmudova nostalji hisslərlə aşılanmış və öz üslub dəyişikliklərinə uğramış təbiət görüntüləri ilə çıxış edib. Dəniz tablosu sanki sonsuzluq simvoluna çevrilir və rəssamın sevdiyi leytmotivlərdən biri olaraq xüsusi maraq doğurur.

# "TEKNOFEST – 2024"də 1,6 milyon iştirakçı var

Türkiyənin Adana şəhərində 10-cu Aviasiya, Kosmonavtika və Texnologiya Festivalı – "TEKNOFEST – 2024" keçirilir.



Bu il festivalın müsabiqə və yarışlarına qatılmaq üçün rekord sayda – 1,6 milyon insan artıq qeydiyyatdan keçib. Bu barədə oktyabrın 1-də festivalın açılış mərasimində layihənin təşkilatçısı "Baykar" şirkətinin idarə heyətinin rəhbəri Selcuk Bayraktar deyib.

O qeyd edib ki, "TEKNOFEST" festivallarının iştirakçıları son illər 150-dən çox texnoloji şirkət yaradıblar, onların bəzisi artıq öz məhsullarını dünyanın onlarla ölkəsinə ixrac edir.

Bayraktarın sözlərinə görə, bu günə qədər "TEKNOFEST" üzrə Türkiyənin 27 şəhərində müsabiqə proqramları keçirilib. Bu tədbirlərdə ölkənin 81 vilayətindən, həmçinin dünyanın 120 ölkəsindən komandalar olub.

"Son yeddi il ərzində, Azərbaycanda keçirilən də daxil olmaqla, doqquz "TEKNOFEST" festivalı uğurla baş tutub. Qarşıdakı illərdə Şimali Kipr Türk Cümhuriyyətində və digər türk dövlətlərində festivallar təşkil etməyi və bununla da milli texnoloji təşəbbüsün coğrafi miqyasını genişləndirməyi planlaşdırırıq", – deyə Selcuk Bayraktar əlavə edib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (4 – 7 oktyabr)



### Xronoqraf

**5 oktyabr** Beynəlxalq Müəllimlər Günüdür. 1966-cı il oktyabrın 5-də UNESCO-nun qərarı ilə təsis edilib.

### 442 il əvvəl...

**4 oktyabr 1582-ci ildə** Roma Papası XIII Qriqorinin qərarı ilə Avropada yeni təqvimə keçid başlanıb. Qriqorian təqvimi adını alan yeni təqvim köhnədən 10 gün irəli (4 oktyabrdan sonra növbəti gün 15 oktyabr oldu) idi. Azərbaycanın da daxil olduğu keçmiş Rusiya imperiyasının ərazisində yeni təqvimə keçid 1918-ci ilin əvvəlində baş verib.

### 123 il əvvəl...



**5 oktyabr 1901-ci ildə** Bakıda müsəlman qızlar üçün ilk təhsil ocağı – Qızlar Məktəbi açılıb. Məktəb maarifpərvər ziyalı Həsən bəy Zərdabinin təşəbbüsü ilə Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa etdirilmişdi. Məktəbin direktoru H.Zərdabinin həyat yoldaşı Hənifə Məlikova-Zərdabi idi.

### 67 il əvvəl...

**4 oktyabr 1957-ci ildə** SSRİ-də dünyanın ilk süni peyki – "Sputnik-1" kosmosa çıxarılıb. ABŞ ilə yarışan SSRİ kosmosun fəthində birincilik əldə edib.

### 51 il əvvəl...

**6 oktyabr 1973-cü ildə** növbəti Ərəb-İsrail müharibəsi ("Məhşər günü" savaşı) başlayıb. Yəhudilərin əlamətdar dini günü ("Məhşər günü" – Yom Kipur) qeyd olunduğu vaxt Misir və Suriyanın İsrailə qarşı başlatdığı savaşın məqsədi 1967-ci ildəki "Altıgünlük müharibə"də (5-10 iyun) məğlubiyyətin əvəzini çıxmaq idi. Lakin 20 günə yaxın sürən bu müharibəni də İsrail qazandı və 6 il əvvəl zəbt etdiyi Sinay yarımadasına (Misir) nəzarəti saxlamaqla bərabər, Suriyanın strateji əhəmiyyətli Qolan təpələrini (paytaxt Dəməşqin 40 kilometrliyi) ələ keçirdi. 25 oktyabrda İsrailin tərəfində olan ABŞ-nin və ərəblərə yardım edən SSRİ-nin ümumi səyləri ilə müharibə dayandırıldı.

### 31 il əvvəl...



**4 oktyabr 1993-cü ildə** Moskvada prezident-parlament qarşıdurması güc tətbiqi ilə başa çatıb. Prezident Yeltsin tərəfindən buraxılmış Ali Sovetin tərəfdarlarının silaha əl atmasına cavab olaraq şəhərə hərbi qüvvələr yeridilib, parlament binası topa tutulub. Ali Sovetin sədri R.Xasbulatov, ona dəstək verən vitse-prezident A.Rutskoy və başqaları həbs edilib. Bu hadisədən sonra Rusiyada sovetlərin mövcudluğuna rəsmən son qoyuldu. 1993-cü il dekabrın 12-də yeni Konstitusiya qəbul olundu və qanunverici orqan kimi Dövlət Duması təsis edildi.

### 30 il əvvəl...

**4-5 oktyabr 1994-cü ildə** Bakıda və Gəncədə dövlət çevrilişinə cəhdin qarşısı alınıb. Çevrilişə hazırlıq oktyabrın 3-də DİN-in Xüsusi Təyinatlı Polis Dəstəsinin rəhbəri Rövşən Cavadov və qardaşı, Xətai rayonunun prokuroru Mahir Cavadovun Respublika Prokurorluğuna basqını ilə başlamışdı. Oktyabrın 4-də baş nazir Surət Hüseynovun göstərişi ilə silahlı dəstələr Gəncədə hakimiyyəti devirməyə cəhd etdi. Prezident Heydər Əliyevin qətiyyəti sayəsində bunun qarşısı alındı. Oktyabrın 4-ü gecə Heydər Əliyevin çağırışı ilə Prezident Aparatının binası önünə toplanan minlərlə insan dövlət başçısına dəstək verdi. 5 oktyabrda "Azadlıq" meydanında mitinqdə çıxış edən Heydər Əliyev dövlətçiliyin müdafiəsinə qalxdığına görə Azərbaycan xalqına təşəkkür etdi.

### 23 il əvvəl...

**7 oktyabr 2001-ci ildə** ABŞ və müttəfiqləri Əfqanıstanda antiterror əməliyyatına başlayıb. 11 sentyabr terroruna cavab olan "Əyilməz azadlıq" adlı əməliyyat 2002-ci ilin yanvarında Əfqanıstanda "Taliban" rejiminin süqutu ilə başa çatdı. 2021-ci ildə amerikalılar Əfqanıstanı tərk etdikdən sonra "Taliban" yenidən hakimiyyətə qayıtdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya № AB 022279. İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5086. **Sifariş:** 2277

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944
MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641